Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4 APREL 2019-cu il

№ 59 (3957)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# İRAQ VƏ SURİYADAN QOVULAN İŞİD KÖÇÜNÜ ERMƏNİSTANA ÇƏKİR - TERRORLA ERMƏNİSTAN MÖVZUSU YENƏ YAN-YANA...

■ səh. 8 ■

Sahibkarlar üçün ayrıca məhkəmə yaradılır, fasiləsiz audioyazı aparılacaq, məhkəmə qərarları internetə yerləşdiriləcək və... ■ səh. 3 ■

Vyanadan sonra Əliyev də, Paşinyan da Putinlə danışdı - forma oxşarlığının altında mahiyyət fərqləri... ■ səh. 5 ■

"Savaş erməni tərəfinin məsuliyyətsiz davranışı üzündən baş verə bilər, məsələn, müdafiə nazirinin..." ■ səh. 9 ■

Paşinyanın Putinə "hesabat zəngi" Ermənistan-Rusiya gündəmindən düşmür... ■ səh. 8 ■

Türkiyə siyasətinin "İstanbul kartı" - AKP və CHP siyasi doktrinası... ■ səh. 5 ■

Dərin sosial islahatlar gedən ölkədə əlillərin reabilitasiya vasitələrinin qiyməti narazılıq doğurmağa başlayıb ■ səh. 13 ■

Narkotiklərə meylli marşrut sürücülərinə necə nəzarət edilməlidir? ■ səh. 14 ■

Dövlət sifarişi ilə çəkilən kinolara xarici şirkətlər hansı mexanizmlə cəlb oluna bilər... ■ səh. 15 ■



■ səh. 4 ■

## Aprel döyüşlərinin ildönümünə Əliyevlərin sosial şəbəkə paylaşımı Ermənistan XİN-i ayrıca addıma sövq etdi...

*Düşmən ölkədə köhnə narahatlıq qabarır, aprel zəfərinin əsl mahiyyətini dəyişə bilmirlər...*



## OPEC+ formatının Bakı iclasının nəticələri beynəlxalq faktora çevrilməyə başlayır

■ səh. 6 ■

## Erməni məsələsinin həlli üzrə Ermənistanın yeni siyasi doktrinası...

■ səh. 7 ■



## Paşinyanın ofisi Putinə edilən zəng barədə məlumatı korrektə etdi, xəbərin əsli isə Kremlin saytında qaldı...

■ səh. 7 ■

■ səh. 4 ■

### Prezidentin rektor təyin etdiyi Heydər Əsədov kimdir?



■ səh. 3 ■

### Azərbaycanın xüsusi təyinatlıları ilə görüşdə Ermənistanı narahat edən nüanslar...



■ səh. 10 ■

### 1918-ci ilin 31 mart soyqırımlarının qurban sayı barədə hərə bir rəqəm deyir...



■ səh. 12 ■

### İqtisadçı-alim Asiya... Bankının Azərbaycanda inflyasiya barədə proqnozunu qəti inkar etdi...



■ səh. 12 ■

### Bakıda tikinti zəifləyir, MTK-lar Türkiyə və Ukraynaya daşınır, Şəhərsalma... Komitəsinin yeni qaydaları müqəssir tutulur...





## Prezident avtomobil yolunun tikintisinə 2,8 milyon manat ayırıb

**Prezident İlham Əliyev Bakı-Şamaxı-Yevlax (12 km)-Xocəsən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı-Şamaxı-Yevlax (12 km)-Xocəsən avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,8 milyon (iki milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Məmmədyarov Moskvada MDB-nin XİN Şurasının iclasında iştirak edəcək

**Aprelin 5-də Rusiya Federasiyasının Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçiriləcək.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikasını xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək.

# Prezident Bakı-Tiflis-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarlarına baxdı...




**Prezident İlham Əliyev aprelin 3-də Bakı-Tiflis-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarlarına baxıb.**

Baki-xeber.com-un prezident.az saytından aldığı xəbərə görə, dövlət başçısı Bakı Dəmir Yolu Vağzalında əvvəlcə Qəbələ dəmir yolu stansiyasının binasının eskiz layihəsinə, sonra Bakı-Tiflis-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarına baxış keçirib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov bildirib ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən istehsal olunan 10 vaqondan ibarət sərnişin qatarı Türkiyə və Gürcüstandan keçməklə martın 29-da Bakıya çatıb. Amma bundan əvvəl qatar Axalkalakidə quraşdırılmış xüsusi qurğuda test rejimində sınaqdan keçirilib. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan-Türkiyə-Gürcüstan sərhəd-keçid məntəqəsində vaqonda təkər cütlərinin eninə bazasının avtomatik olaraq 1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb. Qatarda doqquz sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla dörd kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub.

**Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Aİ Azərbaycan qazının Bolqarıstana nəqli layihəsinə vəsait ayrılmasına razılıq verib

**Avropa Komissiyası Azərbaycan qazının Bolqarıstana nəqlini nəzərdə tutan Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) tikintisi üçün 33 milyon avro vəsaitin ayrılmasına razılıq verib.**

"Trend" bu barədə Avropa Komissiyasına istinadən məlumat verir. Məlumatda qeyd olunur ki, vəsait Yunanıstanın Komotini şəhəri ilə Bolqarıstanın Stara Zaqora şəhəri arasında 182 kilometrlik trans-sərhəd qaz magistralının tikintisinə yönəldiləcək: "IGB ümumi maraq kəsb edən Avropa layihəsidir. İki ölkənin qaz sistemləri ilk dəfə birləşəcək və bu, regionda enerji mənbələrini şaxələndirməklə enerji təhlükəsizliyini artıracaq. Qaz bazarında rəqabətin artması ilə istehlakçılar daha ucuz qaz ala biləcəklər".

## Qırğızıstanda soydaşlarımızın "Azəri" komandası mini futbol üzrə turnirin çempionu oldu

**Martın 30-31-də Bişkekin Kaba aulu Kojomkul adına idman sarayında Qırğızstan Prezidenti Sooronbay Jeenbekovun dəstəyilə baş tutan ölkədə yaşayan xalqların diaspor təşkilatları arasında mini futbol turniri 2010-cu ildə Qırğızstanda baş verən Aprel inqilabı qəhrəmanlarının xatirəsinə həsr olunub.**

17 komandanın iştirak etdiyi turnirdə Azərbaycan diasporunu "Azəri" komandası təmsil edib. Kəskin mübarizədə Ukraynalıların komandası - "Bereginya" - 0:1 hesabı ilə "Azəri" komandasına məğlub olub. Turnirin final oyununda "Azəri" komandası Qırğızstanın Dunqan Assosiasiyasının "Aleks" komandası ilə qarşılaşıb. "Azəri" komandası mübarizə boyunca təşəbbüsə sahib idi. Onlar müdafiədə ehtiyatlı davranıb, rəqibinə gözlənilməz hücumlarla və yüksək sürətlə hərəkət ediblər. Hər iki komandanın həvəskar oyunçularının yüksək səviyyədə futbol göstərməyi tamaşaçılar üçün gözlənilməz olub. Turnirin əsas matçında yalnız bir qol vurulub. Bu, "Azəri" komandasının oyunçularının qələbəsi idi və komandamız 1-ci yeri tutdu. Final oyunu zamanı yerli azarkeşlərin əksəriyyəti bizim komandaya rəğbət bəslədiklərini nümayiş etdirib. Qırğızstan Xalqı Assambleyasına daxil olan yeganə azərbaycanlı legitim diaspor təşkilatı "Azəri" İctimai Birliyinin sədri Əzizağa Əliyev komandamız haqqında mətbuat işçilərinə bunları deyib:"Bizim komanda bir neçə il bundan əvvəl yaradılıb. Biz idmana, xüsusilə də mini-futbola mümkün qədər çox həmyerlilər cəlb etməyə çalışırıq. Uşaqlar bu turnir üçün hərtərəfli hazırlaşdılar. Onlar ağır təlim keçirdilər". Komandamızın üzvlərinə kuboku, medalları, diplomları və pul mükafatını Qırğızstanın Prezident Aparatı rəhbərinin birinci müavini Almaz Kenenbayev təqdim edib. Qeyd edək ki, "Ən yaxşı oyunçu" nominasiyasında da "Azəri" komandasının təmsilçisi layiq görülüb. Ölkənin KİV-ləri bu tədbiri geniş işıqlandırıb.

# Sahibkarlar üçün ayrıca məhkəmə yaradılır, fasiləsiz audioyazı aparılacaq, məhkəmə qərarları internetə yerləşdiriləcək və...

*Prezident Azərbaycanda görünməmiş məhkəmə islahatlarına start verdi...*

**Prezident İlham Əliyev məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərman imzalayıb. Fərmanda qeyd olunur ki, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.**



Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

Eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsi daha da yaxşılaşdırılmalı, müvafiq infrastrukturun yenilənməsi işləri davam etdirilməli, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməli, digər mühüm məsələlər həll olunmalıdır.

Fərmanla Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilir ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilir və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılır ki, müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Prezidentinə təqdim etsinlər.

Ali Məhkəməyə və Məhkəmə-Hüquq Şurasına tövsiyə edilir və Ədliyyə Nazirliyinə bir sıra əhəmiyyətli yeniliklərlə bağlı normativ aktlar hazırlayaraq Azərbaycan Prezidentinə təqdim etmək tapşırılır. Məsələn, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması, hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması, məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsinin məhkəmə aparatları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilməsi, məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibi tələbinin müəyyən edilməsi, məhkəmə qərarlarının elektron qaydada dərc edilməsi və sair kimi yeniliklər olacaq.

**Təfsilatı ilə fərmanın özündə tanış olmaq olar.**

***Baki-xeber.com***

# Azərbaycanın xüsusi təyinatlıları ilə görüşdə Ermənistanı narahat edən nüanslar...

**"Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb". Bu fikirləri Prezident İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsindəki çıxışında qeyd edib.**

*"Bütün bunlardan, təbii ki, ermənilər müəyyən təşvişə düşür və narahat olurlar"*

***Fikrət Sadıqov:*** *"Müharibənin bitməməsi o deməkdir ki, torpaqlar sülh yolu ilə geri qaytarılmasa, Azərbaycan güc yolu ilə öz ərazilərini azad edəcək"*



Bu gün Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğunu vurğulayan dövlət başçısı bildirib ki, ordu quruculuğu prosesi sürətlə gedir, hərbi hissələrimiz yenidən qurulur, ordumuz ən müasir texnika ilə təchiz edilir: "Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb".

Aprel döyüşlərini bizim böyük tarixi qələbəmiz kimi dəyərləndirən Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirib və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib: "Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər".

Dövlət başçısı onu da qeyd edib ki, haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir: "İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir".

Görünən odur ki, Azərbaycan sona qədər işğalla barışmayacaq. Nə qədər ki, işğal olunmuş ərazilər qaytarılmayıb, o zaman müharibənin bitdiyindən söhbət belə gedə bilməz. Yəni danışıqlar nəticə verməyəcəksə, o zaman Azərbaycan güc yolu ilə işğal olunmuş əraziləri azad edəcək. Bütün bunlarla yanaşı, diqqətçəkən məqamlardan biri də odur ki, Prezident İlham Əliyevin müharibənin hələ bitmədiyi barədə səsləndirdiyi fikirlər Ermənistanda və işğal olunmuş Dağlıq Qarabağdakı separatçı qurumda narahatlıqla qarşılanıb. Qarşı tərəf buna həssas yanaşıb və bu müəyyən reaksiyalara səbəb olub. Ermənilərin buna belə yanaşmasının səbəbi nə ilə bağlıdır? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov ermənilərin sözügedən məsələyə belə həssas yanaşmalarını bir sıra faktorlarla əlaqələndirdi:** "Erməni rəhbərlərinin, xüsusən də Ermənistan müdafiə nazirinin sərsəm bəyanatları fonunda, bizim dövlət başçımızın konkret yanaşma sərgiləməsi qarşı tərəfi narahat edir. Onları düşünməyə vadar edir. Məsələ ondadır ki, Azərbaycan dövlət başçısı realliğa uyğun hərəkət edir. Çünki torpaqlar bizim torpaqlardır. Biz heç vaxt onları azad etmək fikrindən daşınmamışıq və bundan imtina etməmişik. Nəinki imtina etməmişik, hətta torpaqların azad edilməsi bizim hazırda yeganə vahid bir məqsədimizdir. Azərbaycanın həm diplomatik, həm də siyasi addımları buna yönəlib. Prezident İlham Əliyev təmas xəttinə gedib əsgərlərlə görüşür, onları ruhlandırır və ən başlıcası, konkret vəzifələr haqqında danışır. Bütün bunlardan, təbii ki, ermənilər müəyyən təşvişə düşür və narahat olurlar. Qarşı tərəf anlamalıdır ki, reallıq nədən ibarətdir. Ona görə də bu reallıqları nəzərə alıb nəticə çıxarmalıdırlar. Nəticə çıxarmayacaqlarsa, o zaman bütün bunlar işğalçı Ermənistana baha başa gələcək. Müharibənin bitməməsi o deməkdir ki, torpaqlar sülh yolu ilə geri qaytarılmasa, Azərbaycan güc yolu ilə öz ərazilərini azad edəcək. Ermənistanın imkanları və gücü Azərbaycanla müqayisə oluna bilməz. O mənada ki, qarşı tərəf qat-qat bizdən zəifdir. Ona görə də Ermənistan və separatçılar narahatdırlar. Müharibə risqi onları çox narahat edir. O üzdən, səslənən fikirlərə belə həssas yanaşırlar".

***Vidadi ORDAHALLI***

**Şanlı aprel döyüşləri hər il ölkəmizdə xüsusi olaraq xatırlanır. Böyük qələbəmizin ilk müjdəsini verən həmin qəhrəmanlıq tariximizin 3 illiyi ilə bağlı ölkə rəhbərliyi tərəfindən də sosial şəbəkələr vasitəsilə fəal təbliğatın aparıldığının şahidi olduq.**

***Düşmən ölkədə köhnə narahatlıq qabarır, aprel zəfərinin əsl mahiyyətini dəyişə bilmirlər...***

# Aprel döyüşlərinin ildönümünə Əliyevlərin sosial şəbəkə paylaşımı Ermənistan XİN-i ayrıca addıma sövq etdi...



*"Heç bir saxta erməni təbliğatı buna kölgə sala bilməz"*

***Daşdəmir Əliyev:** "Baş verənlər bir daha sübut edir ki, Azərbaycan xalqı, onun rəhbərliyi aprel döyüşlərinə, onun qəhrəmanlarına böyük önəm verir"*

Prezident İlham Əliyev "Facebook" səhifəsində və "YouTube" kanalında Azərbaycan Ordusunun aprel qələbəsinin üçüncü ildönümü münasibətilə videoçarx paylaşıb. Videoçarxa "Qəhrəmanlarımızla fəxr edirik! APREL 2016" şərhi verilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva də rəsmi "İnstagram" səhifəsində bu barədə yazıb: "Aprel döyüşləri bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan dövləti işğalla heç zaman barışmayacaq və Azərbaycan Ordusu lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir. Bu döyüşlər zamanı mərd və cəsarətli Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid oldular, ömürlərini qurban verdilər. Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda şəhid olmuş bütün insanlara Allah rəhmət eləsin. Onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaq".

Görünür, ölkə rəhbərliyinin aprel döyüşlərilə bağlı belə aktiv təbliğatı Ermənistanın rəsmi dairələrini bərk narahat edib. Təsadüfi deyil ki, elə həmin gün Ermənistan Xarici İşlər Nazirliyi adından bəyanat yayıldı. Sırf aprel döyüşlərinə həsr edilən həmin bəyanatda qeyd edilir ki, guya 3 il əvvəl qondarma rejimin hərbçiləri Azərbaycan tərəfinin genişmiqyaslı hücumunun qarşısını almağa müvəffəq oldular. Maraqlıdır ki, Ermənistan XİN bəyanatında Azərbaycanı həmin hadisələr zamanı atəşkəsi pozmaqda günahlandırmağa çalışır və qeyd edir ki, bu fakt Dağlıq Qarabağdakı erməni əhalisi üçün etnik təmizləmə təhlükəsinin hələ də qalmasının sübutudur.

Ermənistan XİN səviyyəsində aprel döyüşləri ilə bağlı verilən bəyanatı Azərbaycan dövlət rəhbərlərinin şanlı tariximizlə bağlı apardığı təbliğata cavab cəhdi kimi qiymətləndirmək olarmı?

**Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, aprel döyüşləri Azərbaycanın işğalla barışmayacağını bir daha sübut etdi:** "Hər il bu şanlı döyüşün ildönümü, həmin hadisələr zamanı şəhid olan övladlarımızın xatirəsi xalqımız tərəfindən böyük ehtiramla anılır. Ölkə rəhbərliyinin sosial şəbəkələr vasitəsilə etdiyi paylaşımları izlədim. Hesab edirəm ki, bu faktorun hərbi-vətənpərvərlik hisslərinin daha da qaldırılmasında böyük rolu olacaq. Hər bir zabit, əsgər və gələcəyin əsgəri görür ki, ölkə rəhbərliyi qəhrəmanlığa və konkret olaraq canlarını torpaq yolunda fəda edənlərə hansı dəyəri verir. Təbii ki, Ermənistan siyasi rəhbərliyini bu dərindən narahat edir. Bu səbəbdən də onların XİN səviyyəsində verdiyi bəyanatı cavab xarakterli saya bilərik. Amma böhtanla dolu həmin məzmun Azərbaycanın apardığı təbliğata cavab ola bilməz. Çünki 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldılar. Yəni ilk hücumu biz yox, onlar etmişdi. Bu, aprel döyüşləri kimi tarixləşdi. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və bəzi mövqelər düşməndən azad olundu. Aprel döyüşləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri 2000 hektarlıq ərazini azad etdi. Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb. Bu gün baş verənlər bir daha sübut edir ki, Azərbaycan xalqı, onun rəhbərliyi aprel döyüşlərinə, onun qəhrəmanlarına böyük önəm verir. Heç bir saxta erməni təbliğatı buna kölgə sala bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

**Aprelin 3-də Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Dəniz Akademiyasına rektor təyin olunan Heydər Əsədov kimdir? Sabiq nazirlə bağlı əldə etdiyimiz məlumata görə, Heydər Xanış oğlu Əsədov iqtisadçıdır. O, 1959-cu il oktyabr ayının 24-də Ermənistan SSR-in Qarakilsə rayonunda doğulub.**

# Prezidentin rektor təyin etdiyi Heydər Əsədov kimdir?



1978-ci ildə Bakı Sovet Ticarəti Texnikumunun mühasibat uçotu fakültəsini, 1983-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Uçot-iqtisad fakültəsinin məzunu olub.

1978-1984-cü illərdə institutda oxuduğu illərdə fəhlə, mühasib, böyük mühasib, böyük təftişçi vəzifələrində işləyib. 1983-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunda müəllim, baş müəllim vəzifələrində çalışıb, 1987-ci ildə isə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini alıb.

H.Əsədov 1992-1995-ci illərdə Türkiyənin Mərmərə Universitetinin doktorantı olub.

1995-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə maliyyə nazirinin müavini təyin edilib, 1996-2007-ci illərdə Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığının baş direktoru, Azərbaycan Respublikası maliyyə nazirinin müavini vəzifələrində işləyib. 17 aprel 2007-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Hesablama Palatasının sədri vəzifəsinə təyin edilib. 22 oktyabr 2013-cü ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsinə təyin edilib. O, bu vəzifədə 21 aprel 2018-ci il tarixinə qədər çalışıb. 3 monoqrafiyanın və 30-dan çox elmi əsərin müəllifidir.

2011-ci ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninin kavaleri olan rektor hər zaman diqqət mərkəzində olub. Deyək ki, o barəsində ən çox yazılan məmurlardan biri olub. H.Əsədovla bağlı yazılarda onun fəaliyyətinə ən müxtəlif rakurslardan yanaşılıb. Keçmiş nəqliyyat naziri Ziya Məmmədovla quda olan Heydər Əsədov qohumluq əlaqələrinə görə də gündəmdə olub. Məlumdur ki, keçmiş nəqliyyat naziri Z.Məmmədovun oğlu Anar Məmmədov H.Əsədovun qızı ilə ailə qurub. Bundan başqa, onun Dövlət Gömrük Komitəsi sədrinin müavini, general-leytenant Əsgər Abdullayevlə quda olması barədə də mediada məlumatlar yer alıb.

Onu da bildirək ki, mətbuatda 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkisindən sonra hökumətdə post tutmayan H.Əsədov barədə birmənalı fikirlər yoxdur. Bəziləri onun nazir olduğu dövrlərdə həyata keçirdiyi islahatları təqdir edir, bəziləri isə hesab edir ki, nazir işlədiyi dövrdə bu sahə daha pis vəziyyətə düşüb.

H.Əsədovun 5 illik nazirlik dövrünü qiymətləndirən bəzi ekspertlərin qənaətinə görə, bu dövrdə onun başçılıq etdiyi sahə Azərbaycan iqtisadiyyatının ən əsas prioritetlərindən biri olub və onun bu sahənin inkişafı ilə bağlı təklif etdiyi layihələr ölkə rəhbərliyi tərəfindən dəstəklənib. Buna nümunə kimi nazirliyin rayon şöbələrinin yaradılmasına, şöbələrin əksəriyyətinə xüsusi inzibati bina tikilməsinə və s. nail olması göstərilir. Qeyd edilənə görə, H.Əsədov nazir olduğu dövrdə 52 rayon şöbəsi üçün inzibati bina tikilməsini reallaşdıra bilib. Bundan başqa, onun Hökumət Evindəki ofisindən də narazı olduğu barədə fikirlər medianın gündəmində olub. Yazılanlara görə, buna görə də KTN-in mərkəzi aparatına yeni binanın tikintisi üçün fəaliyyətlər həyata keçirilib. 2017-ci ilin mayında binanın layihələndirilməsi, noyabrında isə artıq tikintisi üçün nazirlik tərəfindən tender elan edilmişdi, binanın isə 10 mərtəbəli olması nəzərdə tutulduğu qeyd edilirdi. Çoxsaylı binaların tikintisi ilə yanaşı, H.Əsədov nazir olduğu dövrdə kənd təsərrüfatı sahəsinə külli miqdarda vəsait ayrıldığı və bura yalnız müxtəlif bitkilərin əkini üçün dövlətin verdiyi dotasiyalar deyil, maşın və texnikanın, damazlıq heyvanların, hətta tinglərin alınmasına, çoxsaylı laboratoriyanın qurulmasına sərf olunan yüz milyonlarla manat dövlət vəsaiti aid olduğu da mətbuatda yer alıb.

H.Əsədov nazir vəzifəsindən kənarlaşdırıldıqdan sonra onun ali məktəblərdən birində müəllimlik etməsi barədə xəbərlər yayılmışdı, lakin sabiq nazir bu xəbəri təkzib edərək heç bir yerdə pedaqoji fəaliyyətlə məşğul olmadığını bildirmişdi. Ötən 1 il ərzində mətbuatda öz fəaliyyəti haqqında heç bir məlumat verməyən H.Əsədov haqqında müxtəlif şayiələr də az deyildi. Məsələn, sabiq nazirin vəzifədən kənarlaşdırıldıqdan sonra depressiyaya düşdüyü barədə informasiyalara da mətbuatda rast gəlinirdi.

Azərbaycan Dövlət Dəniz Akademiyasına rektor təyin olunan H.Əsədov təyinatından dərhal sonra mətbuata açıqlama verib. O, açıqlamasında bütün fəaliyyəti boyu olduğu kimi, dövlətə, dövlətçilik ənənələrinə xidmət edəcəyini, "göstərilən etimadı doğrultmaq üçün çalışacağam" deyib.

***İradə SARIYEVA***

# Vyanadan sonra Əliyev də, Paşinyan da Putinlə danışdı - forma oxşarlığının altında mahiyyət fərqləri...

## *Elçin Mirzəbəyli: "Putinin telefon əlaqəsi ilə bağlı fərq ortadadır və bunu görmək çətin deyil"*

**Məlum olduğu kimi, Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putin arasında telefon danışığı olub. Rusiya tərəfinin təşəbbüsü ilə baş tutan söhbət zamanı liderlər Qarabağ münaqişəsinin həlli yollarını müzakirə ediblər.**



*"Bu həm Azərbaycan Prezidentinə, həm də onun yeritdiyi müstəqil siyasətə yüksək münasibətin göstəricisidir"*

Dövlət başçıları ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə martın 29-da Vyanada Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında keçirilmiş ilk rəsmi görüşün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə ediblər. Prezidentlər ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar prosesinin fəallaşdırılmasının əhəmiyyətini vurğulayıblar. Söhbət zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da müvəffəqiyyətlə inkişafına əminlik ifadə olunub.

Qeyd edək ki, bundan əvvəl Putinlə Paşinyan arasında da telefon danışığı olmuşdu. Ancaq Putinin iki dövlət başçısı ilə telefon əlaqəsi yaratmasına baxsaq görərik ki, ortada bir sıra fərqlər var. Məsələ ondadır ki, Paşinyan özü Putinə zəng edib. Özü də Vyana danışıqlarından dərhal sonra. Həmçinin, Paşinyanın belə davranışı Ermənistan baş nazirinin Rusiya Prezidentinə hesabat verməsi təəssüratını yaradıb və bu, yerli və xarici medianın diqqətindən yayınmayıb. Ümumilikdə, indiyə qədər baş tutmuş bütün danışıqlar öncəsi və sonrası Ermənistan rəhbərləri, bir qayda olaraq, Rusiyaya hesabat veriblər. İlk növbədə bu ənənə Ermənistanın müstəqil dövlət olmadığına və heç bir taleyüklü məsələdə müstəqil qərar verməmdiyinə sübutdur. Vyana görüşündən dərhal sonra Paşinyanın Putinlə əlaqə yaratması Ermənistanın nə dərəcədə "müstəqil" olduğunu ortaya qoyur.

Ancaq Putinin Prezident İlham Əliyevlə telefon əlaqəsinə baxdıqda görürük ki, bu, sırf iki müstəqil dövlət başçısının dialoqudur. O mənada ki, əvvəla bu, danışıqlardan bir neçə gün sonra olub. Özü də Rusiyanın təşəbbüsü ilə. Digər tərəfdən, tərəflər Dağlıq Qarabağ məsələsini müzakirə etməklə yanaşı, eyni zamanda, iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da müvəffəqiyyətlə inkişafına əminliklərini ifadə ediblər.

Bu baxımdan, Putinin Azərbaycan və Ermənistan dövlət başçıları ilə telefon əlaqəsinin aşkar görünən fərqini ekspertlər necə şərh edirlər?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, fərq açıq-aşkar ortadadır:** "Məsələ ondadır ki, Paşinyan öz təşəbbüsü ilə Putinlə telefon əlaqəsi yaradıb. Özü də Vyana danışıqlarından dərhal sonra. Bu da Ermənistan mediasında Paşinyanın Qarabağ danışıqları barədə Rusiya Prezidentinə hesabat verməsi kimi təqdim olundu. Yəni görünən o idi ki, Paşinyanın telefon zəngi həqiqətən də hesabat xarakterli idi. Bunu danmaq doğru olmaz. Ancaq Prezident İlham Əliyevə edilən telefon zəngi isə Rusiya Prezidentinin təşəbbüsü ilə olub. Bu təşəbbüsün də əsasında təkcə danışıqlar prosesində Azərbaycanın mövqeyini öyrənmək deyildi. Eyni zamanda, Rusiya-Azərbaycan münasibətlərinin bərabərhüquqlu əsaslarla inkişafı məsələsi dayanırdı. O baxımdan, Putinin telefon əlaqəsi ilə bağlı fərq ortadadır və bunu görmək çətin deyil. Necə deyərlər, mənzərə göz qabağındadır. Azərbaycanın müstəqil siyasəti, qürurlu davranışı, regionun açar dövləti olaraq regionda geosiyasi çəkisi göz qabağındadır. Bu da dünyanın ən güclü dövlətləri tərəfindən nəzərə alınır. Təbii ki, burada Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri, liderlik qabiliyyəti, iradəsi, qətiyyəti və intellektual potensialı ön sıradadır. Bu baxımdan, Azərbaycana göstərilən hörmət ortadadır. Bu həm ölkə başçısına, həm də onun yeritdiyi müstəqil siyasətə yüksək münasibətin göstəricisidir. Eyni zamanda bu, Azərbaycan dövlətinin gücünə, potensialına, imkanlarına və öz öhdəliklərinə sadiq qalmasına göstərilən münasibətdir".

***Vidadi ORDAHALLI***

# Türkiyə siyasətinin "İstanbul kartı" - AKP və CHP siyasi doktrinası...

## *Fərəc Quliyev: "Böyük siyasətin konturlarının cızıldığı bir mərkəz kimi həmin şəhərin xarici siyasətə də təsir imkanları az deyil"*

**Türkiyədə keçirilən son bələdiyyə seçkiləri bütün dünyanın diqqət mərkəzindədir. Bunun başlıca səbəblərindən biri seçkilərdə ciddi rəqabət mühitinin olmasıdır. Bir çox böyük şəhərlərdə namizədlər arasındakı səstoplama fərqi çox cüzidir. Bu da mübarizənin gərginliyi, namizədlərin ciddi harizmatik xüsusiyyətlərə malik olması ilə bağlıdır.**



*"İstanbulun bələdiyyə başqanı olacaq şəxsin gələcək parlament və prezident seçkilərinə ciddi təsiri ola bilər"*

Ən gərgin mübarizənin isə Türkiyənin iqtisadi paytaxtı və böyük şəhəri sayılan İstanbulda getdiyinin şahidi oluruq. Hiss edilir ki, hakim partiya oradakı məğlubiyyəti ilə barışmaq istəmir. AKP-nin nüfuzlu simalarından olan sabiq baş nazir Binəli Yıldırımın yenilməsini həzm edə bilmirlər.

Məhz buna görə də Türkiyənin Yüksək Seçki Qurumu (YSQ) hakim AKP-nin müraciəti əsasında İstanbulun 7 rayonu üzrə səslərin yenidən sayılmasına qərar verib. Xəbərlərə görə, əvvəlcə AKP səslərin yenidən sayılması üçün İstanbul Dairə Seçki Komissiyasına müraciət edib. Lakin səslərin yenidən sayılmasından narahat olan CHP bunun üçün əsas olmadığını irəli sürərək bu müraciətin təmin edilməməsini, səslərin sayılmasının dayandırılmasını istəyib. Halbuku, qanunda buna icazə verilmir. Ancaq qəribə də olsa, İstanbul Dairə Seçki Komissiyası CHP-nin istəyi ilə 7 rayonda səslərin yenidən sayılması prosesini qanunsuz olaraq yarımçıq dayandırıb. Məsələyə gecə saatlarında YSQ müdaxilə edib və bülleten torbalarının artıq açıldığını nəzərə alaraq səslərin yenidən sayılması qərarını verib.

Xatırladaq ki, YSQ-nin açıqladığı və hələlik rəsmi olmayan nəticələrə görə, İstanbulda seçkiləri CHP-nin namizədi Ekrem İmamoğlu udub. Hakim partiyanın namizədi Binəli Yıldırım ondan 24 minə yaxın səslə geri qalır. Buna baxmayaraq, Yıldırım məğlub olduğunu qəbul etmir və AKP səslərin sayılmasında ciddi pozuntuların olduğunu iddia edərək yenidən sayım tələb edir.

ABŞ Dövlət Departamenti isə Türkiyədə tərəfləri "seçkilərin legitim nəticələrini tanımağa" çağırıb. Dövlət Departamentinin rəsmi nümayəndəsi Robert Palladino Türkiyədəki seçkilərlə bağlı bildirib: "Xəbərləri izləyirik. Azad və ədalətli seçkilər demokratiyanın mühüm hissəsidir. Bura legitim nəticələrin qəbul edilməsi də daxildir".

Dövlət Departamenti rəsmisinin bəyanatı Ankaranın xoşuna gəlməyib. Türkiyə XİN-in rəsmi nümayəndəsi Hami Aksoy yazılı bəyanatla çıxış edərək deyib ki, heç bir ölkənin "hüquq və demokratiyadan uzaq şəkildə başqa ölkələrdə seçkilərin nəticələrinə müdaxilə etmək və özünü nəticələrin legitim qaynağı olaraq görmək səlahiyyəti yoxdur".

Qeyd edək ki, Türkiyənin Yüksək Seçki Qurumu İstanbulun 8 rayonu ilə bağlı qərarını verib.

Fateh, Beykoz, Çəkməköy, Şile, Bayrampaşa və Çatalca kimi rayonlarda etibarsız səslər yenidən sayılacaq. Səslərin sayılması prosesi bütün partiya nümayəndələrinin iştirakı ilə baş tutacaq.

YSQ AKP-nin Bəyoğlu və Sancaqtəpə ilə bağlı etirazını isə rədd edib. Qeyd edək ki, AKP İstanbulun 39 rayonunun hamısında seçkinin nəticələrinə etiraz etmişdi.

Maraqlıdır, İstanbulun bələdiyyə başqanı olmaq ölkə siyasəti, Türkiyənin gələcəyi üçün hansı mühüm əhəmiyyəti daşıyır ki, AKP İstanbul uğrunda belə amansız savaşır?

**Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyədə keçirilən seçkiləri bütün mənalarda təqdir etmək lazımdır:** "Çox demokratik seçki keçirildi. Bu münasibətlə bütün türk xalqını təbrik edirəm. Çünki orada əldə olunan uğur bizim uğurumuz sayılır. Hansı qüvvənin qalib gəlməsinin bizim üçün elə də böyük əhəmiyyəti yoxdur. Milli mənafe baxımından Türkiyədəki siyasi qüvvələr hər zaman bir yerdə olurlar və bundan sonra da belə olacaq. İstanbul Türkiyənin əhali baxımından ən böyük şəhəridir. Çox strateji bir yerdir, sözün bütün mənalarında. Həm iqtisadi, həm də siyasi münasibətlərin aydınlaşdığı bir yerdir. Böyük siyasətin konturlarının cızıldığı bir mərkəz kimi həmin şəhərin xarici siyasətə də təsir imkanları az deyil. Bununla yanaşı, İstanbulda cəmləşən əhali ayələtlərdən tam fərqlidir. Əsasən savadlı kütlənin cəmləşdiyi bu şəhərdəki səsləri qazanmaq ölkənin bütün partiyaları üçün böyük əhəmiyyət daşıyır. İstanbulun büdcəsi bir çox ölkələrin büdcəsindən artıqdır. Hesab edirəm ki, nəticələrə bağlı məsələyə tam obyektiv baxılacaq. Namizədlərin hər biri uğurlu adamlardır. Bu həm də gələcək seçkilər üçün bir baza rolunu oynayır. İstanbulun bələdiyyə başqanı olacaq şəxsin gələcək parlament və prezident seçkilərinə ciddi təsiri ola bilər. Mən təbii ki, seçkilərə müdaxiləni nəzərdə tutmuram. İstanbul bələdiyyəsinə rəhbərlik edən şəxs öz işi ilə bağlı ciddi uğur qazanarsa, onda həmin şəhərin seçicilərinin böyük hissəsinin özünün təmsil olunduğu partiyaya səs verməsini qarantiləmiş olacaq. Ona görə də İstanbul uğrunda belə qızğın mübarizə gedir".

***Məhəmmədəli QƏRİBLİ***

**Son günlərdə dünya birjalarında neftin qiymətinin sürətlə bahalaşması müşahidə olunmaqdadır. Artıq Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 69,2 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 61,8 dollar təşkil edir. Azərbaycan neftinin də qiyməti bahalaşır.**

# OPEC+ formatının Bakı iclasının nəticələri beynəlxalq faktora çevrilməyə başlayır

Son məlumatlara əsasən, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 0,34 dollar artaraq 71,16 dollar təşkil edib.

Ümumiyyətlə, neftin qiymətində son 10 ilin ən yaxşı rüblük performansı qeydə alınır. Hesab edilir ki, neftin qiyməti OPEC+ koalisiyasının hasilatı azaltması, ABŞ-ın İran və Venesuelaya tətbiq etdiyi sanksiyalar nəticəsində istehsaldakı itkilərin tələbata mənfi təsirləri fonunda təxminən son 10 ilin ən yaxşı rüblük performansını göstərir. Belə ki, neftin qiyməti təklif çoxluğunun qarşısını almaq üçün OPEC və tərəfdaşlarının hasilatı azaltmaları ilə 2018-ci ilin sonuncu rübündəki itkilərinin çoxunu bərpa edib. Bu məsələdə təşkilatın, xüsusən son Bakı toplantısının artıq öz müsbət nəticələrini verdiyi vurğulanır.

Xatırladaq ki, Bakıda OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclası keçirilib. 14 neft ölkəsi və OPEC Katibliyinin yüksək səviyyədə təmsil olunduğu bu tədbir isə Prezident İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə baş tutub. Belə ki, hələ 2016-cı ilin yanvarında Davos Forumunda Azərbaycan Prezidenti qiymət sabitliyinə nail olmaq üçün belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürərək bildirib ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər. Məhz bundan sonra müvafiq formatın yaradılması istiqamətində əməli addımlar atılıb. Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan OPEC+ əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirərək, bu formatda keçirilən tədbirlərə ev sahibliyi edir və neft bazarının tənzimlənmə prosesinə töhfə verir. Bir daha vurğulayaq ki, Azərbaycanın təklifi ilə OPEC+ formatının yaradılması qurumun artıq neft qiymətlərinin tənzimlənməsində də mühüm mövqe sahibi kimi çıxış etməsilə müşayiət olunur. OPEC+ foromatında keçirilən son Bakı iclasından sonra isə neft qiymətlərində yüksəliş qeydə alınır.




Bununla yanaşı, bir sıra digər faktorlar da prosesə öz töhfəsini verir. Məsələn, Yaponiyanın topdan neft ticarəti ilə məşğul olan şirkətləri ABŞ-ın İrana tətbiq etdiyi sanksiyalarla əlaqədar may ayından başlayaraq bu ölkədən xam neft alınmasını yenidən dayandırmağı planlaşdırır. Bildirilir ki, ötən ilin noyabrında ABŞ İrana qarşı, xam neftin ixracı da daxil olmaqla, iqtisadi sanksiyaların tətbiqini bərpa edib. Buna baxmayaraq, Yaponiya və bir sıra digər ölkələr üçün cari ilin mayınadək istisnalar tətbiq edilmişdi. Bundan sonra Yaponiyanın xam neft ticarəti ilə məşğul olan "JXTG Holdings", "Cosmo Energy Holdings" və digər şirkətləri cari ilin əvvəllərinədək İran neftinin idxalını bərpa etmişdilər. Hazırda həmin məsələ ilə əlaqədar Yaponiya və ABŞ hökumətləri arasında danışıqlar dalana dirəndiyinə görə bu istisnanın müddətinin uzadılacağı ehtimal olunmur. Məhz bu xəbər də neft qiymətlərinin yüksəlməsinə səbəb olur.

Bundan başqa, Birləşmiş Ştatlardakı aktiv qazma qurğularının sayı da azalmaqda davam edir. "Baker Hughes" şirkəti bildirir ki, ABŞ-dakı aktiv neft və qaz qazma qurğularının sayı 10 ədəd azalaraq 1006 olub. Bu da bazarlara təsir edir. Liviyada, İraqda, Venesuelada, eləcə də İranın özündə hasilatın getdikcə azalması qiymətlərə təsir edir. Digər tərəfdən artıq məlumdur ki, "Brent" markalı neftin qiyməti orta hesabla 80 dollar səviyyəsinə çatmasa, ən böyük hasilatçılardan biri sayılan Səudiyyə Ərəbistanının büdcəsi kəsirli olacaq. Səudiyyə Ərəbistanının ixrac həcmini məhz bu səbəbdən ötən ildəki səviyyədən sutkalıq 800 min barrel azaltmağı planlaşdırdığı bildirilir, bu isə OPEC+ sazişi ilə tələb olunan azalmadan xeyli çoxdur. Son məlumata görə, Səudiyyə Ərəbistanı artıq bu il hasilatı gündəlik 400 min barrel azaldıb, may ayında da bir o qədər azalma olacaq. Məhz bu vəziyyətdə ayın sonuna kimi neftin qiymətlərinin 80 dollara çatması istisna edilmir. Eləcə də OPEC+ foromatının proseslərə müdaxiləsi fonunda qiymətlərin daha da yüksəlməsi gözlənir. Bu vəziyyət, öz növbəsində, digər hasilatçılar kimi Azərbaycanın da neft gəlirlərinin artmasına rəvac verir.

Ümumiyyətlə, yüksək qiymət şəraitində neft gəlirlərinin nəzərdə tutulduğundan çox olması proqnozlaşdırılır. Xatırladaq ki, cari ilin dövlət büdcəsində neftin qiyməti 60 dollardan götürülüb. Hazırda satış qiymətləri bundan yüksəkdir. Qiymətlərin daha da artmasının gözlənilməsi isə neft gəlirlərinin xeyli çox olacağını deməyə əsas verir.

***Tahir TAĞIYEV***



# Amerika şirkətləri BTC-dən və "Əsrin müqaviləsi"ndən çıxmağa hazırlaşır

*BP Amerika şirkətlərinin "Azəri-Çıraq-Günəşli"dəki paylarını almağa əsas iddialıdır...*

**Böyük Britaniyanın "BP" şirkəti Azərbaycanın "Azəri-Çıraq-Günəşli" layihəsində "Exxon" və "Chevron"un paylarının satın alınması nəzərdən keçirməyə hazırdır.**

Baki-xeber.com "İnterfax" agentliyinə istinadən xəbər verir ki, bu barədə şirkətin baş icraçı direktoru Robert Dadli məlumat verib.

"AÇQ"-da iştirakımız bizi məmnun edir. Düşünürəm ki, payımızı artırmaq imkanı meydana gələrsə, bu bizim üçün təbii seçim olacaq, lakin hər şey qiymətdən asılı olacaq", - deyə o bildirib.

Baş icraçı direktor qeyd edib ki, hələlik "Exxon" və "Chevron" öz paketlərini qiymətləndirir və satış üzrə tenderə başlamayıblar.

Qeyd edək ki, "Azəri-Çıraq-Günəşli" layihəsində BP-nin payı 30,37%, ARDNŞ-nin - 25%, "Chevron" və "ExxonMobil"in - müvafiq olaraq 9,57% və 6,79%, "ONGC"-nin - 2,31%, "Inpex Corp. və "Itochu Oil"un - müvafiq olaraq 9,31% və 3,65%, "Statoil"un - 7,27%, "TPAO"-un - 5,73% təşkil edir.

**Onu da xatırladaq ki, ötən ilin dekabr ayında "ExxonMobil" AÇG-dəki 6,79%-lik payını, "Chevron" isə layihədəki 9,57%-lik və Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərindəki 8,9%-lik payını satmaq niyyətində olduqlarını bildirmişdi.**

# Paşinyanın ofisi Putinə edilən zəng barədə məlumatı korrektə etdi, xəbərin əsli isə Kremlin saytında qaldı...

## Nəzakət Məmmədova: "...ört-basdır etmək məqsədilə olunub"

**Ermənistan baş nazirinin mətbuat xidməti Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinlə apardığı telefon danışığına dair məlumatını redaktə edib. Erməni KİV-i xəbər verir ki, mətndən Paşinyanın Putini Azərbaycan Prezidenti İlham Əliyevlə ötən həftə Vyanada aparılmış danışıqlar barədə məlumatlandırması barədə cümlə çıxarılıb.**



*"Bu, Ermənistan diplomatiyasının ənənəvi dəst-xəttidir və mətnin dəyişdirilməsi Paşinyanın dəftərxanasının da bu ənənədən kənara çıxa bilmədiyini göstərdi"*

Onun əvəzinə mətnin yeni və hazırda hökumətin saytında olan versiyasında "tərəflər bu günlərdə keçirilmiş görüşlərin nəticələrini müzakirə ediblər" ifadəsi yer alıb.

Məlumatın birinci versiyası telefon danışığına dair Kremlin rəsmi saytında yerləşdirilmiş məlumatla üst-üstə düşürdü. Kreml də bildirirdi ki, Ermənistan baş naziri İlham Əliyevlə aparılmış danışıqlar barədə Rusiya Prezidentini məlumatlandırıb.

Paşinyanın mətnin yeni versiyasından bu ifadəni niyə çıxardığı məlum deyil. Amma bəzi erməni KİV-i ehtimal edir ki, məlumatın əvvəlki variantında Ermənistan baş nazirinin Putinə "müəyyən tabeliyi" əks olunurdu və bu da erməni tərəfinin "daha aşağı statusda olmasını" göstərirdi. Paşinyan isə mətni dəyişdirməklə Putinə "tabe olmadığını" nümayiş etdirir və bu variantı Ermənistanın suverenliyi baxımından daha məqbul sayır. Ermənistan KİV-indəki materialların məzmunundan hiss edilir ki, Paşinyanın Putinə etdiyi zəng və bununla bağlı yayılan ilkin məlumata görə baş nazirə ciddi basqılar var. Ermənistanın telefon danışığı ilə bağlı yayılan mətni redaktə etməyə başqa hansı amillər vadar edə bilər?

**Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, mətndəki əvvəlki cümlədə Paşinyanın Putini məlumatlandırması Paşinyan haqda Putin qarşısında hesabat verməli olan, özünü Rusiya Prezidentinə yaxın göstərmək, ona xoş gəlmək üçün görüş barədə məlumat verməyi vəzifə borcu bilən siyasətçi təsəvvürü yaradır:** "Belə olduğu təqdirdə, Putin və Paşinyan arasında suverenliyə, müstəqil dövlət başçıları arasında bərabərhüquqlu münasibətlərə sığmayan aşkar tabelik münasibətləri nəzərə çarpır. Eyni zamanda, bu, Rusiya Prezidenti Putini də xoşagəlməz vəziyyətdə qoyur. Rusiya Prezidentini danışıqlar barədə məlumatlandırmalı olan səlahiyyətli şəxs Minsk Qrupunun rusiyalı həmsədridir. Münaqişə tərəfi olan, eyni zamanda, guya müstəqil dövlətin rəhbəri olan baş nazir belə etməməlidir".

N.Məmmədovanın sözlərinə görə, biz Ermənistan bir dövlət kimi yaradılandan bəri ona rəhbərlik etmiş istənilən şəxsin Rusiyadan çəkindiyini bilirik: "Son hadisələr göstərir ki, Paşinyan da istisna deyil. Doğrudur, o, hakimiyyətə gəldikdən sonra bir sıra addımlar atdı və bu, Rusiyanın Ermənistan siyasətinə zidd idi. Lakin son dövrlər Paşinyan tələsdiyini anlayaraq Rusiyaya qarşı əvvəlki kimi radikal deyil və hakimiyyətini itirməmək, Rusiyanın təxribatlarına rəvac verməmək üçün daha çəkingən davranır. Eyni zamanda, görünür, o, seçkilərdə xalqın səsini qazanmaq üçün növbədənkənar parlament seçkilərinədək bir sıra anti-Rusiya addımları atmalı olmuşdu. Lakin 2018-ci il dekabr seçkilərindən sonra istər daxili, istərsə də xarici siyasətdə müəyyən təkamülü müşahidə edirik, o cümlədən, son Vyana görüşünün detalları barədə Putini məlumatlandırması bu qəbildəndir".

Xanım politoloq hesab edir ki, Paşinyan Putinə qaçaraq məlumat verməklə ona yaxın və səmimi olduğunu sübut etmək, Putinin itirilmiş etimadını qazanmaq niyyətində olub: " Eyni zamanda, danışıqlar barədə məlumat verməklə məsələni Rusiya Prezidentinə özünə sərf edən şəkildə çatdırmaq, həm də Minsk Qrupunun rusiyalı həmsədri İqor Popovu qabaqlamaq istəyib. Mətndə redaktə də Paşinyanın etdiyi hərəkəti ört-basdır etmək məqsədilə olunub. Bu, Ermənistan diplomatiyasının ənənəvi dəst-xəttidir və mətnin dəyişdirilməsi Paşinyanın dəftərxanasının da bu ənənədən kənara çıxa bilmədiyini göstərdi".

*Məhəmmədəli QƏRİBLİ*

# Erməni məsələsinin həlli üzrə Ermənistanın yeni siyasi doktrinası...

## Elşən Mustafayev: "Artıq ermənilər qondarma soyqırım təbliğatının nəticə vermədiyinin fərqinə varmağa başlayıblar"

**Ermənilər yeni doktrina üzərində iş aparırlar. Ermənistan KİV-ində "Müasir etapda dünyadakı erməni probleminin həllinə dair siyasi doktrinanın tezisləri" adlı bir sənəd yayılıb.**



*"Yəqin ki, bu adla dünya ermənilərindən ianə toplamağı düşünürlər"*

Bir sıra tarixçi və din adamlarının imza atdığı həmin sənədin tezislərində Şərqi və Qərbi Ermənistanda baş verən hadisələr və bunun nəticəsində erməni xalqına dəymiş "ziyan"la bağlı geniş məlumat verilir və onların aradan qaldırılması, problemlərə düzgün siyasi qiymətin verilməsi üçün bütün dünya ermənilərinin birləşməsi, vahid mövqedən çıxış etməsi kimi məsələlərə böyük diqqət ayrılıb. Ən başlıcası isə sənədin böyük hissəsi Osmanlı Türkiyəsi və onun siyasi varisi olan Türkiyə Cümhuriyyətinə qarşı nifrətin aşılanmasın həsr edilib. Müəlliflər tarixə ekskurs edərək hadisələrin təhrifi yolu ilə guya ermənilərin həm Rusiya imperiyası, həm Yaxın Şərq, həm də Osmanlı imperiyasında sıxışdırılması, hətta bir millət kimi yer üzündən silinmək təhlükəsinə məruz qalmasına dair saxta dəlillər də təqdim edirlər. Tezislərdə qeyd olunur ki, ermənilərin başına gələn bütün tarixi bəlalar onların millət olaraq birliklərinin zəif olması ilə bağlıdır. Qeyd olunur ki, daha güclü Ermənistan yaratmaq üçün qondarma "Artsax"la Ermənistan Respublikasının birləşməsi zəruridir. Hətta bildirilir ki, müasir zamanda ermənilər "Qərbi Ermənistan"da (Türkiyə ərazisi nəzərdə tutulur - M.Q.) itirdikləri mövqelərini yenidən bərpa etməlidirlər. Bununla onlar bir çox ölkə ilə yanaşı, Türkiyəyə qarşı da açıq ərazi iddiası irəli sürürlər. Sonra bildirilir ki, bu doktrinanın həyata keçirilməsi üçün yeni təşkil olunacaq diaspor fəaliyyəti ilə bağlı lazım olan büdcə Ermənistanın dövlət büdcəsindən çox olmalıdır. Çünki bu qlobal layihəni həyata keçirmək üçün böyük maliyyə vəsaitinə ehtiyac var.

Ermənilərin belə bir yeni siyasi doktrina ilə çıxış etməsi nə ilə izah oluna bilər?

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin sənəddə əsl erməni xisləti yenidən ortaya qoyulub:** "Siz göndərdiyiniz mətni oxudum. Əslində, burada qəribə nəsə görmədim. Sadəcə indi ermənilər mübarizələrini başqa adla aparmaq istəyirlər. Hansısa yeni cəlbedici adı qoymaqla diqqəti əsl mahiyyətdən yayındırmağa çalışırlar. Həmin sənəddə, faktiki olaraq, uzun illər boyu bütün dünya ermənilərini öz ətrafında cəmləyən "Böyük Ermənistan" kimi sərsəm ideyanın bütün tezisləri mövcuddur. "Böyük Ermənistan" adlanan ideologiyada da başqa ölkələrə ərazi iddiaları irəli sürülür. Hətta "dənizdən dənizə" kimi ərazilərin ermənilərə məxsus olduğu deyilir. Burda da həmin fikirlər var. Tezislərdə ermənilərdə birliyin olmadığından, diaspor fəaliyyətinin zəifliyindən giley edilir. Halbuki, bütün bunlar ermənilərdə hər zaman güclü olan faktorlardır. Ən əsas məqam bundan ibarətdir ki, artıq ermənilər qondarma soyqırım təbliğatının nəticə vermədiyinin fərqinə varmağa başlayıblar. Görürlər ki, dünyanın bəzi parlamentləri həmin sənədi qəbul etsələr də, nəsə dəyişmir. Ona görə də ortaya yeni doktrina atırlar. Ən başlıcası isə həmin sənəddə guya bir neçə erməni dövlətinin olduğu beyinlərə yeridilir.

**Tarixi boyu dövləti və konkret məskunlaşdığı ərazisi olmayan xalq indi fərqli adlarla bir neçə dövlətinin olduğunu qeyd edir və onların birləşməsinin zəruriliyini vurğulayır. Çox avantürist məzmunlu bir sənəddir. Yəqin ki, bu adla dünya ermənilərindən ianə toplamağı düşünürlər. Fikir verirsinizsə, böyük maliyyənin lazımlığı sənəddə xüsusi qeyd edilir".**

*Məhəmmədəli QƏRİBLİ*

# İraq və Suriyadan qovulan İŞİD köçünü Ermənistana çəkir - terrorla Ermənistan mövzusu yenə yan-yana...

**"Suriya və İraqdakı məğlubiyyətindən sonra İŞİD öz maraqlarını Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Ermənistan ərazilərinə yönləndirir". Bu barədə mətbuata açıqlamasında Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizmə Müqavimət Baş İdarəsinin rəisi Oleq İlyinix deyib.**

*"Ermənilər buna humanitar don geyindirməyə çalışsalar da, reallıq ondan ibarətdir ki, buna qarşı olanlar var"*

***Azad İsazadə:*** *"Ola bilsin İŞİD Ermənistandan silah mənbəyi kimi istifadə etmək istəyir"*




Onun sözlərinə görə, İŞİD terrorçuları bütün dünyada terror fəaliyyətləri həyata keçirə biləcək ümumdünya terror şəbəkəsinin, "yatan" dairələrin yaradılması üzrə planlar hazırlayırlar.

Bu arada Ermənistan mətbuatı Rusiya DİN-in nümayəndəsi tərəfindən açıqlanan bəyanatda MDB-nin üzvü olan Azərbaycanın adının çəkilməməsini xüsusi təəccüblə qarşılayıb və bir növ, bundan hiddətlənib. Erməni mətbuatı iddia edir ki, Mərkəzi Asiya ölkələrinin vətəndaşları İŞİD-in terrorçuluq fəaliyyətində iştirak edirdilər, hazırda məğlubiyyətdən sonra həmin şəxslər ölkələrinə qayıdaraq terror qruplaşmaları yarada bilərlər. Həmçinin, iddia edirlər ki, Rusiya Ermənistanı İŞİD-lə təhdid edir: "Ümumiyyətlə, dünya mətbuatında məğlub olan İŞİD döyüşçülərinin hara gedəcəyi geniş müzakirə mövzusudur. Məlumdur ki, İŞİD müxtəlif qruplaşmalardan təşkil edilib. Moskvanın İŞİD-də öz payı var. Mətbuatda yayılan məlumatlardan aydın olur ki, İŞİD-in tərkibində döyüşən yüzlərlə qafqazlı vardı. Bunların çoxu Rusiyanın Şimali Qafqaz bölgəsindəndir. Bu şəxslər Rusiya tərəfindən toplanaraq nəzarət altında Soçi olimpiadasından əvvəl Suriya və İraqa göndərilib".

"Belə çıxır ki, bu şəxslərin siyahısı Rusiyaya məlumdur və hara qayıdacaqlarını bilirlər. Bəs belə olan halda niyə həmin dövlətlərin siyahısında Azərbaycan yoxdur", - deyə erməni mətbuatı İlyinixin açıqlamasına təxribatçı don geyindirməyə çalışıb.

Ermənistanın bu və ya digər dərəcədə terroru dəstəklədiyi sirr deyil. Ona görə ki, terror fəaliyyəti ilə məşğul olmaq bu ölkənin dövlət siyasətinin tərkib hissəsidir. Zaman-zaman Ermənistanın müxtəlif terror qruplaşmaları ilə gizli əlaqələri gündəmə gəlib. Bu baxımdan, İŞİD-in Ermənistana olan marağı nə ilə bağlı ola bilər?

**Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, burada bir sıra versiyalar ola bilər, amma konkret hansı versiyanın daha real olduğunu demək bir qədər çətindir:** "Ermənistanda İŞİD-in bazası yoxdur. İŞİD əsasən müsəlman ölkələrində və müsəlmanların yaşadığı dövlətlərdə özünə sosial dayaqlar yaratmağa çalışır. Ancaq Ermənistanın ümumilikdə terror qruplaşmaları ilə əlaqəsi var və bunu danmaq olmaz. Məsələn, PKK fəalları Ermənistandan tranzit məqsədlər üçün istifadə edirlər. Rusiyadan Ermənistana gəlib Türkiyəyə keçmək üçün və s. Ancaq konkret İŞİD-ə gəldikdə, ola bilsin terror qruplaşması Ermənistandan silah mənbəyi kimi istifadə etmək istəyir. Bu səbəbdən İŞİD-in Ermənistana yönəlik marağı ola bilər. Digər tərəfdən, Ermənistan xüsusi xidmət orqanları İŞİD-in Türkiyəyə və ya Azərbaycana qarşı terrorçu fəaliyyətinə hansısa dəstək də verə bilərlər. Yəni belə fəaliyyətlərin arxasında Ermənistan xüsusi xidmət orqanları dayana bilər. Ancaq bir məqamı da nəzərdən qaçırmaq olmaz. Məsələ ondadır ki, Ermənistan silahlı qüvvələri Rusiya egidası altında Suriyada fəaliyyət göstərir. Ermənilər buna humanitar don geyindirməyə çalışsalar da, reallıq ondan ibarətdir ki, buna qarşı olanlar var. Ola bilsin ki, Ermənistanın sözügedən fəaliyyətinə cavab olaraq İŞİD bu ölkəni hədələsin. Hər halda, bütün bunlar ciddi araşdırılmalıdır. Çünki nəzərə almaq lazımdır ki, Ermənistan terrora meylli bir dövlətdir".

***Vidadi ORDAHALLI***

# Paşinyanın Putinə "hesabat zəngi" Ermənistan-Rusiya gündəmindən düşmür...

**Çevrilişlə dövlət başçısı postuna gələn Nikol Paşinyan sələflərindən fərqlənərək Ermənistanı müstəqil dövlətə çevirmək istəsə də, aydın görünür ki, o, vəziyyəti tamam korlayıb. Əgər əvvəllər Rusiya Ermənistanın əsas himayədarı sayılırdısa, indi Kreml də İrəvana etibar etmir. Paşinyanın qərbyönümlü siyasət yeritməyə çalışması və bunu bacarmaması Ermənistanı daha çətin vəziyyətə qoyaraq ABŞ-la Avropanın da ondan üz çevirməsinə rəvac verib.**



İndi nə Rusiya, nə də Qərb Ermənistana dəstək verir. Belə vəziyyətdə Ermənistanda nəzərəçarpacaq dərəcədə artan anti-Rusiya əhval-ruhiyyəsi isə Moskvanı daha da qəzəbləndirir. "Lragir" nəşri yazır ki, Rusiyanın İrəvana iqtisadi təzyiqlərinin artmasının əsas səbəblərindən biri elə budur. Nəşr yazır ki, Kremli lk olaraq qazın qiyməti ilə bağlı təsir rıçaqlarını işə salıb və qazın qiyməti Ermənistan üçün iqtisadi, siyasi əhəmiyyətə malikdir: "Bu, Rusiyanın əlində Ermənistana qarşı böyük rıçaqdır. Belə ki, Ermənistan Qərbə doğru istiqamət götürərək, birtərəfli qaydada Rusiyanın nüfuz dairəsindən çıxmağa çalışır. Ermənistan iqtisadiyyatı qazın qiymətinin artırılması məsələsində çətin duruş gətirə bilsin. Bu qiymət artımı bütün sahələrdə bahalaşmaya, əhalinin sosial vəziyyətinin gərginləşməsinə səbəb olmaqdadır. Moskvanın da istədiyi elə budur. Aydındır ki, belə şərait Ermənistanda mövcud gərginliyi daha da artıra bilər. Məhz bu da Paşinyan iqtidarı üçün ciddi təhdiddir". Ermənistan parlamentinin keçmiş deputatı, ekspert Azat Arşakyan da bildirir ki, Kreml daha İrəvana əvvəlki münasibət bəsləmir. O, Rusiya telekanallarında antierməni ifadələri və verilişlərlə bağlı halların çoxalmasını da buna sübut kimi göstərir: "Ermənistanın KTMT-dəki nüfuzu yaxşılaşmayıb, Nikol Paşinyanın bildirdiyi kimi, əksinə, Ermənistan qalmaqallı ölkə kimi qavranmağa başlayıb. Rusiya itirməyə başlayarsa, onda birinci növbədə Ermənistandan imtina edəcək.

Mən nikbin adamam və düşünürəm ki, Ermənistanı kobudcasına bayıra atmayacaq, sakitcə çəkiləcəklər. Onlar indi öz vətəndaşlarını buna hazırlayırlar. Obrazlı desək, bizə xəbərdarlıq edirlər ki, madam daha onlara inanmırıq, onda özləri çıxıb gedərlər. Hələlik onlarda qaba, bayağı boşanma, qısqanc ər ssenarisi işə düşüb. Siyasi elita imtina edib, buna görə də bizə heç nə yatırmır, operativ iqtisadi fəaliyyət göstərmir, birgə müəssisələr, kooperasiyalar yaratmırlar. Bizim "Mars" zavodu rusların kosmik proqramına işləmir, onlara ehtiyat hissələr tədarük etmirik. Yəni iqtisadi boşanma artıq baş verib. Rusiyadan Ermənistana kisə-kisə pul gətirib paylamağı kooperasiya adlandırmaq olmaz. Belə ki, buldozerlərin gizli işi artıq göz qabağındadır. İndi onların bizi necə tərk etməyə hazırlaşdıqlarını görürük. Təbliğat vətəndaşları artıq buna hazırlayır ki, Ermənistan pisdir, bizim deyil. Necə deyərlər, tülkünün ağzı üzümə çatmayanda deyir ki, kaldır… Ermənistana indi imtina edilməsi gərəkən turş üzüm kimi baxırlar.

KTMT-dəki qalmaqallar, NATO ilə əməkdaşlıq və ya iqtisadi alternativ axtarışları, Avropa Birliyi ilə saziş, rusların fikrincə, bütün bunlar qalmaqaldır. Müstəqilliyə can atmaq da qalmaqaldır. Əslində, bütün bunları telefonda danışmaq olar, amma onlar qalmaqala çevirirlər. 150 il birgə yaşayışdan sonra boşanmanı daha mədəni şəkildə təşkil etmək mümkündür".

Bununla yanaşı, o da məlumdur ki, məlum Vyana görüşündən sonra Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinə görüş barədə hesabat verib. Paşinyanın Putini Azərbaycan prezidenti İlham Əliyevlə ötən həftə Vyanada aparılmış danışıqlar barədə məlumatlandırması isə, Azat Arşakyana görə İrəvanın Moskvaya yarınmaq cəhdi olsa da, Kreml Ermənistana qarşı heç də sərt mövqeyini dəyişən deyil: "Söhbət qiymətləndirmə və həqiqətdən, alternativ həqiqətdən, iki həqiqətdən gedir. Birincisi, qiymət şovinistcəsinədir: vassal xaricdən dönüb və nəticələr haqda məruzə edir. Paşinyan deyir ki, danışdıq, tapşırığınızı yerinə yetirdim, sizə qarşı heç nə yoxdur, sizə qarşı sui-qəsddə iştirak etməmişəm. Onlar faktiki olaraq vassalın səfəri haqda məlumat verirlər. Bizim həqiqətimiz isə bundan ibarətdir ki, dövlət başçısı Rusiya təmsilçisinin də qatıldığı çətin danışıqlara gedib. Baş nazirimiz görüşdən sonra həmsədr ölkə ilə üfüqi münasibətlər haqda bildirib. Yəni bizim üfüqi, Rusiya isə şaquli münasibətlərdən danışır. Baş nazirimiz qonşu dövlətin başçısı ilə iki ölkəyə aid məsələləri müzakirə edir, Kreml isə elə təqdim edir ki, guya tabe adam rəisə raport vermək üçün zəng edib. Fərq də bundadır - Ermənistan Rusiyanı müttəfiq, tərəfdaş sayır, onlar isə bizi vassal sayırlar". O da vurğulanır ki, Moskvanın belə münasibəti Ermənistanın qarşıdakı dövrdə daha çətin duruma salacaq. Ən azı o baxımdan ki, Kremlin artaq təzyiqləri qarşısında Ermənistanın duruş gətirməsi mümkünsüzdür.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Savaş erməni tərəfinin məsuliyyətsiz davranışı üzündən baş verə bilər, məsələn, müdafiə nazirinin..."

## *Bakıdan İrəvana yeni sərt hərbi mesajlar...*

**Bu gün hərbi qüdrətinə görə Azərbaycan nəinki Qafqazda, eləcə də MDB, Şərqi Avropa məkanında dünyanın ən güclü ölkələrindən biri sayılır. Xatırladaq ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatda bildirilib ki, Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü ordusudur.**

Təşkilatın 2019-cu il üzrə siyahısına əsasən Azərbaycan ordusu bir pillə də irəliləyərək gücünə görə 52-ci yeri tutub. Cənubi Qafqazın digər ölkəsi Gürcüstan dünyada 85-ci, Ermənistan isə 96-cı yerdədir.

Bütün bunlar bir daha Azərbaycanın hərbi baxımdan işğalçı Ermənistanı dəfələrlə üstələdiyini aydın şəkildə nümayiş etdirir. Belə vəziyyət həm də o deməkdir ki, Qarabağ konflikti hərbi müstəviyə keçəcəyi təqdirdə Azərbaycan çox asanlıqla istədiyi nəticəyə nail olaraq ərazi bütövlüyünü bərpa edəcək. Özü də burada düşmən nəzərə almalıdır ki, savaş hələ başa çatmayıb və istənilən an qaynar mərhələyə keçə bilər. Qeyd olunan xüsusda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində çıxışı zamanı işğalçı tərəfə yenidən çox aydın mesajlar verdi. Dövlət başçısı vurğuladı ki, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Eyni zamanda diqqətə çatdırıd ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyi dəyişməzdir: "O ki qaldı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb, əminəm ki, tanımayacaqdır". İlham Əliyev bildirdi ik, danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır.

Aydındır ki, Ermənistan bütün bunlardan lazımi nəticə çıxarıb məsələnin dinc həlli üçün gərəkən addımlar atmasa, savaş qaçılmaz olacaq. Əslində, düşmən ölkədə də yaxşı bilirlər ki, İrəvanın qeyri-konstruktivliyi savaşı tətikləyən amildir. Məsələn, Ermənistanın işğal altında olan Qarabağda qanunsuz formalaşdırdığı hərbi birləşmənin sabiq komandiri Levon Mnatsakanyan bildirir ki, vəziyyət dəyişməsə, məsələnin həlli gec və ya tez baş verəcək hərbi əməliyyatlardan keçməli olacaq. Onun sözlərinə görə, vəziyyətin kənardan baxarkən sakit olduğunu demək olar, lakin Azərbaycanın davamlı olaraq silah aldığı nəzərə alınmalıdır. Hər gün ölkəmizin yeni silah nümunələri əldə etməklə silah anbarını genişləndirdiyini qeyd edən Mnatsakanyan eyni zamanda Azərbaycan ordusunda hər gün bu silahların mənimsənilməsi üçün məşqlərin keçirildiyini də bildirib. O, bu təlimlərdə Azərbaycanın müxtəlif ölkələrdən təlimatçılar cəlb etdiklərini qeyd edir: "Azərbaycan Qarabağa de-yure müstəqillik verməyəcək. Bu məsələnin həlli gec və ya tez baş verəcək hərbi əməliyyatlardan keçir".

Ermənistanın Demokratiya partiyasının rəhbəri Aram Sarkisyan da danışıqların dalana dirənməsinin Ermənistan üçün heç də xoş olmayan savaş vəd etdiyini deyir: "Bu gün danışıqlar prosesini dalana dirəyən mövcud gündəm dəyişərsə, danışıqlar yeni mərhələyə daxil olacaq. Lakin hələlik bu real görünmür". Aram Sarkisyan indiki vəziyyətdə Qarabağ münaqişəsinin həlli prosesində barışıq perspektivi görmədiyini bildirib: "Hər iki tərəf öz mövqeyini iddia edirsə, belə halda kimin doğru olduğuna qərar verilməsi üçün hakimin olmasına zərurət var. Bütün mümkün üsullar bugünədək istifadə edilsə də, razılığa gəlməyin mümkün olmadığı faktdır. Bu da savaşa yol açır. Amma nəzərə alaq ki, Azərbaycan daha 1990-cı illərin ölkəsi deyil, ordusunu hər gün gücləndirir".

Elə rusiyalı hərbi ekspert Aleksandr Xramçixin də bildirir ki, əslində, savaş erməni tərəfinin məsuliyyətsiz davranışı üzündən başlana bilər: "Məsələn, Ermənistan müdafiə nazirinin bəyanatı belə deməyə əsas verir ki, Vyanada Azərbaycan və Ermənistan rəhbərləri hər hansı məsələ ətrafında razılığa gəlməyiblər. Bu da savaş ehtimalını yüksəldir".

Qeyd edək ki, Vyanada Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilən görüş konstruktiv adlandırılsa da, Ermənistanın müdafiə naziri David Tonoyan Nyu-Yorkda xüsusi bəyanatla çıxış edərək bildirib ki, bundan sonra "sülh müqabilində ərazi" formatı olmayacaq. O, bunu başqa cür formalaşdıraraq, "yeni müharibə, yeni ərazilər" kimi təqdim edib. Bu deyilənlərin danışıqların nəticəsi ilə hər hansısa bağlılığına gəldikdə isə, rusiyalı hərbi ekspert Xramçixin qeyd edib ki, ritorikanın bu dərəcədə kəskinləşməsi o deməkdir ki, Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilən danışıqlarda heç bir razılıq əldə edilməyib. Xramçixin bunu təbii hesab etdiyini qeyd edib. O, hər iki rəhbərin mövqeləri tamamilə bir-birilə ziddiyət təşkil etdiyi halda münaqişənin nizamlanması sahəsində hansı razılıq və ya güzəştlərin əldə edilə, nə barədə danışıqlar aprıla biləcəyini anlamadığını dəfərlərlə qeyd etdiyini vurğulayıb.

Ekspert bu görüşün, çox müzakirə edilməsinə baxmayaraq, əvvəlcədən də heç bir gözləntisinin olmadığını bildirib. Xramçixin qeyd edib ki, rəsmi bəyanat və şərhlərdə humanitar tədbirlərin keçirilməsi, vəziyyəti gərginləşdirən bəyanatlardan çəkinməyə dair bəzi məsələlər ətrafında konsensus var. Bunun razılaşma olmasına gəldikdə isə, Xramçixin deyib ki, hər hansı söhbətlər aparıla bilər: "Ehtimal edilir ki, belə də olub. Bu razılaşmaların necə həyata keçirildiyini, Azərbaycan və Ermənistan arasındakı mühitə necə təsir edəcəyini yaxında görərik".

Xramçixin həmçinin rəhbərlər arasında keçirilən görüşün konstruktiv olmasının bəyanının həmsədrlərin fəaliyyətinin tərkib hissəsi olduğunu da qəbul etməyi xatırladıb: "Nə dərəcədə nəticəsiz olsa belə, həmsədrlər danışıqlar prosesini alqışlamalıdır. Həmsədrlərin işi bu görüşlərin təşkil edilməsindən ibarətdir. Münaqişənin tarixçəsinə nəzər saldıqda bu görüşlər baş tutub, lakin əksər hallarda ciddi nəticələrə gətirib çıxarmayıb. Bu, baş verənlərin digər tərəfidir. Ancaq ciddi məsələlər ətrafında hər hansısa bir razılaşma əldə edilmədiyinə görə erməni tərəfi hərbi ritorikasını dəyişir. Müharibə olmadan bu münaqişəni həll etmək mümkün deyil. Müharibənin nə vaxt olacağını demək çətin olsa da, bu müharibədən yayınmaq qeyri-mümkündür".

Tərəflərin danışıqlar prosesinə yeni təkan verildiyini bəyan etməsinə baxmayaraq, bu danışıqların hər hansı bir nəticə verməyəcəyinə gəldikdə isə, ekspert bildirib ki, tərəflərin mövqeləri bir-birilə ziddiyət təşkil edirsə, bu halda münaqişənin həlli üçün vacib olan güzəştlərdən yox, yalnız tərəflərdən birinin sözsüz kapitulyasiyasından danışmaq olar. Hərbi ekspert buna görə də hansı tərəfin və niyə kapitulyasiyaya gedəcəyini bilmədiyini qeyd edib:

"Kapitulyasiya yalnız daha bir müharibə nəticəsində baş verə bilər. Bir çox vacib məsələlər ətrafında razılıq olmadan münaqişənin həll edilməsinin mümkün olmadığı halda, həmçinin bu danışıqlarda hər hansı konsensus əldə edilmədiyi bir vaxtda tərəflər niyə və nə barədə danışıqlar aparır? Bu danışıqlar mühitinin nə qədər davam edəcəyinə gəldikdə isə, danışıqlar prosesinin prinsipləri sonsuzluğa qədər uzadıla bilər və bu status-kvo erməni tərəfi üçün əlverişli olduğuna görə açıq-aşkar məlumdur ki, Ermənistan buna qarşı deyil. Azərbaycan isə, əlbəttə, uzun müddət gözləyə bilməz. Sadəcə olaraq, Azərbaycan tərəfinin münaqişəni hərb yolu ilə həll etməyə nə vaxt başlayacağını deyə bilmərəm, bunun üçün xarici amillər də var. Amma Azərbaycanın hərbi cəhətdən kifayət qədər üstün olması da faktdır və yaxşı olardı ki, Ermənistanda bunu nəzərə alsınlar. Dəyişiklik yaşanmasa, müharibə olacaq, amma yenə də deyirəm, yeni müharibənin nə zaman olacağını deyə bilməyəcəm".

Ermənilərin özləri də daxil olmaqla digər ekspertlərin ümumi rəyi budur ki, savaş olacaqsa, Ermənistan ağır zərbələr alacaq. Buna rəğmən, Azərbaycan hələ də məsələnin dinc müstəvidə həllində maraqlı olduğunu bildirir, lakin sadəcə, danışıqlar xatirinə danışıqlar aparmaq niyyətinin olmadığını da açıq bəyan edir. Bu isə o deməkdir ki, Ermənistan indiki mövqeyindən geri çəkilməsə, savaşın başlanması qaçılmazdır və buna görə bütün məsuliyyət işğalçı ölkənin üzərinə düşür.

İndilikdə Azərbaycan dəfələrlə bəyan edib ki, Qarabağ münaqişəsinin həll edilməsində irəliləyişə nail olmaq üçün substantiv danışıqlarda maraqlıdır. Məhz substantiv danışıqlar vasitəsilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Elə danışıqlar prosesində də Bakı Azərbaycan ərazilərinin işğalının dayandırılması, məcburi köçkünlərin təhlükəsiz qayıdışı üçün şəraitin yaradılması, erməni və azərbaycanlı icmalarından ibarət Dağlıq Qarabağ regionunun əhalisi üçün geniş idarəetmə hüquqlarının təmin olunması kimi nəticələrə yönəlmiş məsuliyyətli dialoqun tərəfdarı olduğunu vurğulayır. Lakin hələlik görünən budur ki, Ermənistan hələ də Bakının bu istiqamətdə təklif və addımlarına adekvat reaksiya verməkdə çətinlik çəkir. Məhz bu da münaqişənin güc yolu ilə həllini sürətləndirməkdən başqa heç nəyə xidmət etmir. Münaqişənin belə şəraitdə çözümü isə Ermənistanın daha sarsıdıcı zərbələrə tuş gəlməsini qaçılmaz edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 1918-ci ilin 31 mart soyqırımlarının qurban sayı barədə hərə bir rəqəm deyir...

*"Qərbi Azərbaycanda insanlar kütləvi şəkildə öldürülüb, amma öldürülən əhali ilə bağlı dəqiq rəqəm yoxdur"*

***Anar İsgəndərli:** "Bütün bunlar göstərir ki, "Vikipediya"da qeyd olunan rəqəmlər qətiyyən doğru deyil və öldürülən əhalinin sayı olduğu kimi təqdim edilməyib"*

***Faiq Ələkbərli:** "Ümumilikdə, erməni daşnakları 1918-ci ildə 200 min nəfərdən artıq azərbaycanlını qətlə yetiriblər"*



**Tariximizin ən yaralı səhifələrindən biri olan 1918-ci ilin 31 mart tarixində daşnak-bolşevik birləşmələrinin Azərbaycan xalqına qarşı törətdikləri soyqırım aktları zamanı qətlə yetirilən azərbaycanlı əhalinin sayı barədə əlimizdə olan heç bir mənbədə dəqiq məlumatlara rast gəlinmir.**

Hətta "Vikipediya"da 31 mart soyqırımı ilə bağlı yerləşdirilən məqalənin özündə də daşnak-bolşevik birləşmələrinin qətlə yetirdikləri türk-müsəlmanların sayının dəqiq göstərilmədiyi bildirilir. Tarixçilər hesab edirlər ki, 31 mart soyqırımı ilə bağlı həm Şimali Azərbaycanda, həm Qərbi Azərbaycanda, həm də Cənubi Azərbaycanda minlərlə insan öldürülüb. Öldürülənlərin dəqiq sayına gəlincə isə, hər tarixçi bir rəqəm söyləyir.

**Tarix elmləri doktoru, professor Anar İsgəndərli "Bakı-Xəbər"ə bildirdi ki, "Vikipediya"da 31 mart soyqırımı ilə bağlı yanlışlıqlar mövcuddur.** Alimin sözlərinə görə, "Vikipediya"da 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı yerləşdirilmiş məlumatlar düzgün verilməyib. Fövqəladə Təhqiqat Komissiyasının rəqəmlərini misal gətirən A.İsgəndərlinin sözlərinə görə, bu rəqəm yalnız Bakını əhatə edir. "Fövqəladə Təhqiqat Komissiyasının rəqəmlərinə görə, həmin vaxt təkcə Bakı şəhərində 11 mindən artıq türk-müsəlman qətlə yetirilib. Bunun ardınca komissiya yazır: "Soyqırımı mart ayında həyata keçirilib. Komissiya isə noyabr ayında fəaliyyətə başlayıb. Təbii ki, bu dövr ərzində soyqırımı zamanı neft quyularına, dənizə atılan, gözdən uzaq yerlərdə, şəhər ətrafında öldürülən kifayət qədər insan olub. Təəssüf ki, onların dəqiq sayını müəyyənləşdirmək mümkün olmadı. Şamaxı şəhərində 8 min, Şamaxı qəzasının Əlibic kəndində 8 min 27 nəfər qətlə yetirilib. Quba qəzasında 16 min türk-müsəlmanın həyatına son qoyulub. Qərbi Azərbaycanda öldürülən insanların sayını müəyyənləşdirmək isə mümkün olmayıb. Çünki erməni tarixçisi Kordokyan 1931-ci ildə Moskvada nəşr etdirdiyi "Nasileniye Armenii" kitabında yazırdı ki, Birinci Dünya Müharibəsi başlayarkən bu ərazidə 565 min türk-müsəlman yaşayırdı. Ancaq 1920-ci ilin sonlarında orada türk-müsəlman əhalinin sayı 70 min idi. Bu da göstərir ki, öldürülən və qaçıb canını qurtarmağa nail olan əhalinin sayı kifayət qədər çox idi. Azərbaycanın cənubunda öldürülən insanlar bundan da çox idi. Təkcə Lənkəranda 2 mindən artıq insan soyqırıma məruz qalıb. Bütün bunlar göstərir ki, "Vikipediya"da qeyd olunan rəqəmlər qətiyyən doğru deyil və öldürülən əhalinin sayı olduğu kimi təqdim edilməyib. Ümumiyyətlə, o dövrdə ermənilər tərəfindən Qərbi Azərbaycanda kütləvi qətlə yetirilən müsəlman-türk əhalinin sayı məlum deyil. Elə kəndlər olub ki, erməni daşnakları onların əhalisini tamamilə məhv ediblər. O dövrdə insanların qətlə yetirilməsindən əlavə, nə qədər insanın qaçqın düşməsi faktları olub, onların mal-mülklərinə zərər dəyib. Həmin vaxt Fövqəladə Təhqiqat Komissiyası ora gedə bilməyib. Ancaq bu o demək deyil ki, orada adamlar öldürülməyib, öldürülüb, özü də kütləvi şəkildə. Lakin əlimizdə konkret rəqəm yoxdur. Qərbi Azərbaycanla bağlı ayrı-ayrı tədqiqatçıların yazdıqları və şahid ifadələri var. Biz həmişə deyirdik ki, İkinci Dünya Müharibəsində SSRİ 20 milyon itki verib, ancaq 1988-ci ildə məlum oldu ki, 27 milyon itki verib. Qərbi Azərbaycanda insanlar kütləvi şəkildə öldürülüb, amma öldürülən əhali ilə bağlı dəqiq rəqəm yoxdur".



Alim qeyd etdi ki, bu barədə sənədlərdəki rəqəmlərin hamısı ümumiləşdirilməlidir, lakin bir çox sənədlərdə konkret say da göstərilməyib. A.İsgəndərlinin sözlərinə görə, yalnız Cənubi Azərbaycanın Xoy, Urmiya, Sərab və digər şəhərlərində ermənilər 80-100 min nəfər azərbaycanlını qətlə yetiriblər. Bunun o dövrün sənədlərində əks olunduğunu deyən A.İsgəndərli qeyd etdi ki, bu da ermənı daşnaklarının törətdikləri qırğınların miqyasının olduqca geniş olduğunu göstərir.



**Tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli isə bildirdi ki, dəqiq rəqəm olmasa da, müxtəlif sənədlərə istinadən ehtimallara görə, ümumilikdə, 200 min nəfərdən artıq azərbaycanlı qətlə yetirilib.** "Erməni daşnakları və bolşeviklər birləşərək Azərbaycanın həm cənubunda, həm şimalında, həm də qərbində azərbaycanlılara qarşı divan tutublar və bunun nəticəsində də saysız insan qətlə yetirilib. Cənubi Azərbaycanın müxtəlif şəhərlərində 100 min azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib. Şimali Azərbaycanda və Qərbi Azərbaycanda da erməni daşnakları tərəfindən qətlə yetirilənlərin sayı 100 min nəfərdən artıqdır. Ümumilikdə, erməni daşnakları 1918-ci ildə 200 min nəfərdən artıq azərbaycanlını qətlə yetiriblər. Mənim "Vikipediya"da yer alan rəqəmlərdən xəbərim yoxdur, orada nə yazıldığını bilmirəm" - deyə F.Ələkbərli qeyd etdi.

O bildirdi ki, Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" kitabında yazılana görə, təkcə Bakı şəhərində və onun ətrafında ən azı 12 min nəfər əhali bolşevik və daşnak birləşmələri tərəfindən qətlə yetirilib.

Qeyd edək ki, "Vikipediya"da mart soyqırımı ilə bağlı məqalədə yazılana görə, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və "Daşnaksütyun"dan olan erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Həmin məqalənin digər bir hissəsində isə "Təxmini hesablamalara görə, mart soyqırımı zamanı Bakıda 15-20 min, Şamaxıda 7 min, Qubada isə 6 min nəfər öldürülüb. Salyan, Nəvahi, Lənkəran, Kürdəmir kimi rayonlarda da qırğınlar törədilsə də, öldürülən insanların sayı dəqiq bilinmir" yazılıb.

***İradə SARIYEVA***

**Miladdan öncə 135-51-ci illərdə yaşamış antik yunan mütəfəkkiri Posidonis (Suriyanın Arameya şəhərində doğulub, uzun illər ərzində səyahət edib, Yunanıstanda fəlsəfi-tarixi məktəbin əsasını qoyub) Aralıq dənizinin şərq hissəsində və Ərəbistan yarımadasında, Mesopotamiya ovalığında yaşayan tayfaların, qəbilələrin etno və morfogenetik irsinin təkamülü, coğrafi yerləşmə arealının tarixi sərhədləri barədə yazdığı bir sıra əsərlərdə ("Okean haqqında", "Əxlaq haqqında", "Əxlaq haqqında fikirlər"...) qiymətli bilgilər irsi qoyub.**

***(II məqalə)***

# Hay qəbilə-tayfa sürüsünün morfo və etnogenetik xüsusiyyətləri...

Həmin məlumatlara görə, qədim Finikiya, Frakiya və Ərəbistan ərazilərində yaşayan qəbilə-icmaların etno-morfogenetik bağlılığı onların irsi keçmişindəki üzvü bağlılıqla ("sümükqan" qohumluğu ilə, genlə) əlaqəlidir, onlar doğmalığa malikdir. Bu tayfalar sırasında ilk növbədə finikiyalıların, ərəblərin və farsların adları çəkilir. Və bu tayfalar içərisində Aralıq dənizi adalarından köçüb bu ərazilərdə məskunlaşmış hayların adlarına da işarə edilir. Qeyd edilənlər əvvəlki yazılarımızda irəli sürülmüş qənaətin doğruluğuna sübut kimi qəbul edilə bilər. Belə ki, indiki hay qəbilə-tayfa sürüsünün ilkin mağara-ocağı Afrikanın şərqində (indiki Həbəşistan və Keniya dövlətləri ərazisində, Tekeza çayı hövzəsində) olub. M.ö. II-I minilliklərdə onlar qaraçı sürüsü halında Qırmızı dəniz sahilləri boyunca Nubiya səhrasından keçərək Aralıq dənizi adalarında və yarımadalarında (Bizans imreriyası daxilində) dolanaraq, V -VI əsrlərdə Yunan kilsəsinin təsiri ilə Finikiya və Fars dövlətlərinin ərazisinə köçürülüblər. İndiki qondarma gerblərindəki "dəniz ləpələrinin" təsviri onlara o ərazilərdən acı bir xatırlamadır.

M.ö. 484-425-ci illərdə yaşamış "tarixin atası" Herodot da "Tarix" əsərində Aralıq dənizinin şərq sahillərində Yunan-Bizans imperiyasının torpaqlarından köç edənlər (onun adlandırdığı arameyalılar) barədə qeyd edir.

SSRİ EA-nın N.N.Mikluxo-Maklay adına Etnologiya və Antropologiya institutunun alimi, rus tarixçisi M.B.Raytın 1950-ci illərdə apardığı tədqiqatlara ("Afrika etnoqrafiyası" toplusu, 1956) görə, m.ö. I minillikdə Cənubi Ərəbistandan ərəb tayfaları Həbəşistana köç ediblər. Onların yerli aborigen tayfalarla qaynayıb-qarışması, assimlyasiyası kuşit tayfalarının bir çoxunda (tiqran, tiqr, quraq, qalla qəbilələri) baş verib. Onlar etno və morfogenetik əlamətlərininə görə də qara dərili, sifət və baş quruluşu, üz, sifət, alın quruluşu ilə yerli tayfalardan fərqlənib. Yerli təbii şəraitə uyğun həm də qəbilə-tayfa həyat tərzi tiqran, tiqr, quraq tayfalarının qaraçı sürüsü kimi qonşu torpaqlara (ərazilərə) mütəmadi köç etmələrinə səbəb olub, onlar Ərəbistan yarımadasına, Dəclə və Fərat çayı hövzələrinə, Aralıq dənizi adalarına və yarımadalarına üz tutublar.



Göründüyü kimi, m.ö. I minilliyin sonu və eramızın əvvəllərində Asiya qitəsinə qaraçı sürüsü kimi köç edən bu tayfalar və qəbilələr müxtəlif adlar altında köçəri həyat tərzi keçirdiyindən (güclülərin himayəsinə sığındığından - Bizans və Fars dövlətlərinə), V-VI əsrlərdə "xristian dininin" təriqətçiləri kimi Finikiya və Fars dövlətləri ərazisində təxribat və casusluqla məşğul olaraq yerli dövlətlərin zəiflədilməsi istiqamətində fəaliyyətlərini genişləndiriblər.

Yuxarıda göstərilən bu iki hal hay tayfa-qəbilə şürüsünün qədim yerləşmə arealının cizgilərinə uyğun gəlsə də, onların sürü şüurunun formalaşmasına digər amillər də təsir edib. İlk növbədə tarixi yerlərini zorən dəyişdiklərindən, etnik xüsusiyyətlərinə görə (xəyanət və hiyləgərliyi) aborigen tayfalar onları qəbul etməyib. Ərəbistan yarımadasının (Nubiya səhrasının) və Şərqi Afrika dağlıq yaylasının Mavi Nil (Abbay) və Tekeza çayları hövzələrinin təbiicoğrafi şəraiti onların morfogenetik strukturuna aşağıdakı kimi təsir edir:

-bədən quruluşunun assimetrikliyi (bərabərsizliyi), sifət cizgilərinə iqlim-relyef elementlərinin (qara, həbəşi rəng, alın-çənə, burun qabarlıqlığı, qadın sifətinin tüklülüyü...)kompleks təsiri;

-bu fərqləndirici amillər dünyanın istənilən guşəsində onları yerli əhalidən ayırıcı morfolji özəllikdir;

-ekvatorial və tropik relyef şəraitinin (səhra, quru yarımsəhra, tropiki meşə və bolsulu çay hövzələri) qəbilə-tayfa sürüsünün qaraçı həyat tərzini formalaşdırıb;

-əski təşəkkül tapdıqları təbii-coğrafi arealın məhdudluğu hay sürüsünün sayca artımına mənfi təsir göstərib, çünki onlar aborigen olmayıb (uydurduqları 3 minillik tarixi dövr ərzində onlar cəmi 3-4 milyon nəfərə çatıb -149 milyon kv.km ərazidə, özlərinin rəsmi statistik məlumatlarına görə);

Ayrı-ayrı coğrafi məkanlarda qaraçı sürüsü həyat tərzi keçirdiklərindən, hər yerə uyğun morfoloji xüsusiyyətləri əxz etdiklərindən, həmişə başqa xalqaların tarixi-ictimai və mədəni irsindən qidalandıqları üçün (həbəş və yunan yazılı nümunələri əsasında əlifba, müsəlman-türk torpaqları hesabına dövlət, Azərbaycan türklərinin maddi-mədəni irsi hesabına mədəniyyət, rus xalqının sayəsində təhsil və mövqe...), onların hələ ki, regional baxımdan əldə etdikləri maddi və mənəvi sərvətlərdir.

Morfogenetik xüsusiyyətləri isə onların qaraçı sürüsü xislətinə uyğun etnogenetik əlamətlərinin təşəkkülünə səbəb olub. Bu etnogenetik əlamətlərə də müəyyən amillər təsir edib:

-səhra və çay vadilərinin təbii şəraiti, yaşamaq uğrunda təbiətin çətinliklərinə uyğunlaşmaq və həmişə qida əldə etmək instinkti onlarda "dişlə-dırnaqla çarpışma" vərdişi yaradıb;

-etnik vərdişlərində tayfa-qəbilə arası savaşlarda bar-bar üsulların qorunub saxlanması;

-köç etdikləri ərazilərdə uydurma "özəlliklərinin" təbliğinə və yalanlarına inandırmağa ciddi-cəhd göstərilməsi;

Nəticədə bu qəbilə və qaraçı sürüsü regional ərazilərdə "özünütəsdiq" istiqamətində həmişə müharibə-savaş xəttini seçib. Məsələn, tiqran, qalla və tiqr tayfaları savaşa meylli olduqlarından, onlardan Bizans və Fars dövlətləri oğurluq, basqınçılıq, talanetmə... əməliyyatlarından geniş istifadə edib.

Bu baxımdan tarixi faktlar sübut edir ki, Bizans, Fars və Ərəb imperiyalarının döyüş meydanlarında bu tayfa üzvləri açıq və gizli halda iştirak ediblər. Erkən və aralıq orta əsrlərdə Yaxın və Orta Şərq sərhədləri daxilində çoxillik bu cür müharibələrdə iştirak edən hay qəbilə-tayfa sürüsü indiki Livan, Suriya və İraq ərazilərində özlərinə yer tapa bilib. Amma onlar bununla kifayətlənə bilmədiklərindən (hay qəbilə-tayfa sürüsü heç vaxt aza qane razı olmadıqlarından), uydurma əməllərə və qonşu torpaqlarına olan meyllərindən əl çəkə bilməyib, etno-morfo xislətlərinə uyğun olaraq XIX-XX əsrlərdə Qafqaz regionuna üz tutublar.

Hay etnosunun psixopatoloji durumunu səciyyələndirən (sosial qrup,cins, yaş və iqtisadi amillərə görə sorğu aparılaraq qiymətləndirilən) qəbilə-tayfa sürüsünün nümayəndələri Samvel Qrant Sukiasyan və A.M.Minayan 2007-ci ildə belə qənaətə gəliblər ki, ayrı-ayrı dövrlərdə haylarla bağlı tarixi hadisələri və "şəxsiyyətləri" ümumiləşdirməklə bu etnosu səciyyələndirmək mümkündür. Yəni hayların yaşadığı (başqa xalqlara yaşatdıqları faciələr) ümumi tarixi hadisələr onların psixopatoloji (etnogenetik) təsviri üçün yetərlidir.

Bir vacib cəhət isə hay kilsəsi ilə bağlıdır. IV əsrdə Yunan-Bizans kilsəsi tərəfindən qovulan hay sürüsünün "başıörtülü-saqqallıları" (qondarma din xadimləri, I Qriqoridən tutmuş II Qareginə qədər) cəbbəxana və terrorçu dəstələrin yiyələri olublar.

Bu baxımdan hay tayfa-qəbilə sürüsünün və onların öndegedən üzvlərinin yalnız XIX əsrin II yarısında və XX əsrin I yarısında müsəlman-türk xalqlarına qarşı həyata keçirdiyi tarixi hadisələrə nəzər yetirmək kifayətdir. Kilsə nümayəndələrinin təhrikinə (yalanlarına) aldanan müsəlman din xadimləri nəticədə faciələr yaşayıblar.

1918-1920-ci illərdə Qafan nahiyəsində Qatar kəndində hay kilsə nümayəndələri yerli müsəlmanlarla guya barışmaq məqsədilə 500 nəfərə yaxın dinc sakini məscidə yığıb və quldur Q.Nijdenin dəstələri məscidə od vuraraq onların hamısını diri-diri yandırıb.

Həmin illərdə Naxçıvan qəzasının Culfa nahiyəsinin Nehrəm və Yaycı kəndlərində də oxşar faciələr baş verib (Osmanlı Türkiyəsi ordusunun xəyanətkar "paşası" Andronik Ozanyanın quldur dəstələri tərəfindən). Quba qəzasında məscidləri yerlə-yeksan edən, dinc sakinləri soyqırım-qətliama düçar edən Amazaps Srvantsdyan eyni faciələri Göyçay qəzasının Qaraməryəm, Bığır, Kürdmaşı, Qubaxəlilli... kəndlərinin əhalisinə də yaşadıb.

1918-ci ilin mart ayında Şamaxı şəhərində ən qədim məsciddə (743-cü ildə tikilib) 2000 nəfər, digər 13 məsciddə 5000 nəfər günahsız insan hay kilsəsi nümayəndələrinin fitnəsinin, yalanlarının, bizim din xadimlərimizin sadəlövhlüyünün qurbanı (S.Lalayanın və T.Amiryanın silahlı dəstələrinin) olub.

1919-cu ilin yanvar ayında hay quldurу (general) Drastamat Kanoyan (Dro) Şuşa qəzasında eyni üsulla sakinlərə qarşı amansız işgəncələr (əsirlərin küreyinə qaynar samovar sarıyıb, hamilə qadınları təhqir edib, qocaları və uşaqları kəsib-doğrayıb) törədib.

1902-1905-ci illərdən siyasi-avantürist quldur fəaliyyətini Azərbaycanla bağlayan Anastas Mikoyanın 1918-1920-ci illərdə Bakı quberniyasında (eləcə də bütün Azərbaycanda) S.Şaumyanın və digərlərinin quldur silahlılarının törətdiyi soyqırım-qətliam faciələrinə ideoloji və siyasi rəhbərlik etməsinə bir nümunə demək olar. !918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında quldur haylara tapşırıqlar verən A.Mikoyanın qərargahı Mərəzə və Hilmilli kəndlərində olduğundan, onun təklifilə bölgənin 100-ə yaxın ağsaqqalını "Qarabulaq dərəsi"ndə "məşvərət" adı ilə bir yerə yığaraq hamısını güllələyiblər. Həmin yer indi "Qanlı dərə" adlanır.

Quldurbaşı S.Şaumyanın oğlu Levon (1904-1971) isə Böyük Sovet Ensklopediyasının baş redaktoru kimi ömrü boyu Azərbaycana, müsəlman-türk dünyasına qarşı nifrin yağdırıb, xain xislətlərindən əl çəkməyib. Bu "xisləti" hay sürüsünün öndə gedənlərindən X.Abovyana (1809-1848) , M.Şaginyana (1888-1982), İ.Baqramyana (1897-1982).... və bir çoxlarına (elə hamısına) şamil etmək olar.

Deməli, ayrı-ayrı dövrlərdə yaşayan və müxtəlif tarixi hadisələrin iştirakçıları olan hay sürüsünün üzvlərinin fokuslaşmış fonunda eyni etnogentik və morfogenetik xüsusiyyətlərin özünü büruzə verməsi qanunauyğun haldır. Yəni m.ö. II-İ minilliklərdə Həbəşistan və Keniya ərazilərində (çay vadiləri və mağaralarda) sürü halında yaşayan tiqran, tiqr, qalla sürüsünün etnik qan daşıyıcıları olan indiki haylar eyni qaraçı həyat tərzini sürməklə, vərdiş və psixopatoloji yaddaş, qangen daşımalarında tarixi zərurətə məhkumdurlar. Dünya sivilizasiyasının təkamül mərhələsindən kənarda qalmalarına səbəb olan amillər məhz bu sürünün etnik həyat tərzi, morfoloji özəllikləri və psixoloji durumları ilə bağlıdır.

ABŞ-nın hüquq müdafiəçisi olan A.Uimz "Terrorçu "xristian" dövləti olan Ermənistanın sirləri" kitabında Texas, 2002) qeyd edir ki, 1918-ci ildən başlayaraq Ermənistanın ixracı "terrorizm", idxalı isə xristian dövlətlərindən maliyyə yardımı olub. Bu fikirlərin özü də hay qəbilə-tayfa sürüsünün etnik və morfopatoloji xüsusiyyətlərinin qiymətləndirilməsi üçün əsas ola bilər.

Yuxarıda göstərilənləri nəzərə alaraq demək olar ki, hay qəbilə-tayfa sürüsünün təbii-coğrafi şəraitdən asılı olaraq patoloji özəlliklərinin tədqiq edilməsinə və həqiqi qiymətinin verilməsinə ciddi ehtiyac var. Bunu dövlətimizin və xalqımızın tarixi-milli dövlətçilik ideyalarının möhkəmləndirilməsi və həyata keçirilməsi amalımız tələb edir.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# İqtisadçı-alim Asiya... Bankının Azərbaycanda inflyasiya barədə proqnozunu qəti inkar etdi...

**Asiya İnkişaf Bankı (ADB) Azərbaycanda inflyasiyanın hansı səviyyədə olacağı barədə məlumat yayıb. Açıqlanan məlumatda qeyd olunur ki, 2019-cu ildə Azərbaycanda inflyasiya 4 faiz, 2020-ci ildə isə 5 faiz səviyyəsində olacaq. Bankın ekspertləri cari ildə Azərbaycandakı 4 faizlik inflyasiyanı əməkhaqlarının artırılması nəticəsində daxili tələbatın da artımı ilə əlaqələndirirlər.**



*"Hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə, bu, bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir"*

## **Əli Əlirzayev:** *"Cari və qarşıdakı ildə Azərbaycanda inflyasiya 4-5 faiz deyil, 2-2,5 faiz səviyyəsində olacaq"*

Bunun da nəticəsində 2020-ci ildə inflyasiya səviyyəsi 5 faizədək artacaq.

Qeyd edək ki, ölkədəki inflyasiyanın 2017-ci ildə 12,9 faizdən 2018-ci ildə 2,3 faizədək, baza inflyasiyanın isə 1,8 faizədək azalmasının neftin bahalaşması sayəsində və sərt monetar-kredit siyasəti vasitəsilə əldə edildiyi göstərilir. Bu da mübadilə məzənnəsini sabitləşdirməklə istehlak bazarında qiymət artımını minimum səviyyədə saxlayıb.

**Xaricdən idxal olunan ərzaq məhsullarının qiymətlərində azalma nəticəsində daxili bazardakı ərzağın bahalaşması 2017-ci ildəki 16,4 faizdən 1,7 faizədək, digər məhsulların bahalaşması 11,6 faizdən 2,6 faizədək, xidmətlərin bahalaşması da 9,3 faizdən 2,7 faizədək azalıb.**

2019-cu ildə Azərbaycanda inflyasiyanın 4, 2020-ci ildə 5 faiz səviyyəsində olacağı barədə proqnoza iqtisadçının fikirlərini öyrəndik.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Əli Əlirzayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, beynəlxalq təşkilatlar özlərinə məxsus hesablama ilə inflyasiyanın hansı səviyyədə olacağı barədə məlumat yayırlar:** "Asiya İnkişaf Bankının nümayəndələri bildirirlər ki, 2019-cu ildə Azərbaycanda inflyasiya 4, 2020-ci ildə 5 faiz səviyyəsində olacaq. Ancaq digər beynəlxalq təşkilatlar, eyni zamanda, yerli mütəxəssislər isə fərqli düşüncədədirlər. Onların fikrincə, 2019-cu ildə ölkədə inflyasiya 2, 2020-ci ildə 2,5 faiz səviyyəsində olacaq. Əksər beynəlxalq təşkilatların da Azərbaycanda inflyasiya barəsindəki proqnozları hökumətin proqnozları ilə üst-üstə düşür".

Həmsöhbətimizin sözlərinə görə, qarşıya qoyulmuş məqsədlərdən biri də ölkədə inflyasiyanın 2-2,5 faiz səviyyəsində olmasıdır: "Nəzərə almaq lazımdır ki, son zamanlar əhalinin gəlirləri artıb, inflyasiya 2-2,5 faiz təşkil edib.

**Bu isə əhalinin gəlirlərinin qiymət artımını 4 dəfə üstələdiyini göstərir. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə bu, bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir".**

***Günel CƏLİLOVA***

# Bakıda tikinti zəifləyir, MTK-lar Türkiyə və Ukraynaya daşınır, Şəhərsalma... Komitəsinin yeni qaydaları müqəssir tutulur...

**Son zamanlar Azərbaycanda inşaat işlərinin həcmində müəyyən azalmalar müşahidə edilir. Bu azalma hardasa özünü 20 faiz civarında göstərir. Məlumata görə, 2017-2018-ci illərdə mənzil və inşaat bazarında müəyyən qədər aktivlik olub. Həm yeni, həm də köhnə tikili mənzillərin bazarında aktivlik müşahidə edilib.**




*"Bu səbəbdən düşünmürəm ki, Bakıda inşaat işləri azalsın və kapital xarici ölkələrə yönəlsin"*

## **Ramil Osmanlı:** *"Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tikinti ilə bağlı müəyyən fundamental tələbləri var"*

Belə fikirlər var ki, şəhərsalma arxitekturası baxımından yeni standartların tətbiq edilməsi ilə əlaqədar olaraq bu il inşaat həcminin azalması gözlənir. İnşaat bazarında qaydalar sərtləşdirildiyi üçün, mühitin rəqabətli olmasına baxmayaraq, şirkətlər qiymətləri qaldırmaq niyyətindədirlər. Yeni normalar tətbiq edildikcə, bazarda rəqabət azalacaq. Nəticədə isə qiymətlərin 30-40 faizədək qalxacağı iddia edilir. O da bildirilir ki, bu ilin əvvəlindən etibarən mənzil bazarında alıcılıq səviyyəsi aşağı düşüb. Belə davam edərsə, yerli investorlar xarici bazarlara maraq göstərəcək. Bunu onunla əlaqələndirirlər ki, təkcə bu ilin fevralında azərbaycanlılar tərəfindən 7 tikinti şirkəti Türkiyədə qeydiyyata alınıb. Eyni zamanda, azərbaycanlılara məxsus tikinti şirkətlərinin Ukraynada da aktiv fəaliyyət göstərdikləri deyilir.

Onu da qeyd edək ki, 2018-ci ildən etibarən inşaat işlərinə nəzarəti həyata keçirən yeni qurum fəaliyyətə başlayıb. Bu, Dövlət Şəhərsalma və Arxitektura Komitəsidir. Bu qurum yeni tələblər və standartlar ortaya qoyub. Hazırkı şərtlər daxilində tikinti prosesinin başlanması üçün müəyyən məhdudiyyətlər tətbiq olunur. Maraqlıdır, bütün bunlar Azərbaycanda inşaat işlərinin azalmasına və bu sahədəki kapitalın digər ölkələrə axmasına səbəb ola bilərmi? Bununla bağlı səslənən fikirlər nə dərəcədə əsaslıdır?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı səslənən fikirlərə fərqli prizmadan yanaşdı.** Onun fikrincə, həmin qaydaların tətbiqi vacib idi: "Düzdür, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tikinti ilə bağlı müəyyən fundamental tələbləri var. Ancaq hesab edirəm ki, bu tələblər kifayət qədər haqlı tələblərdir. Məsələ ondadır ki, bu günə qədər Bakıda şəhərsalma qaydaları kobud şəkildə pozulurdu. Bu mənada, hesab edirəm ki, tikintinin tempinin azalması o qədər də təhlükəli deyil. Əksinə, çox xaotik, qarışıq, qaydalara, qanunvericiliyə zidd olan tikinti formaları təhlükəlidir. Hesab edirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mövcud tələbləri, yeni tətbiq olunan standartlar, əslində, yetərincə normaldır. Bu daha çox qanunsuz tikililərə, eyni zamanda, tikinti normalarının pozulmasına qarşı yönəlmiş addımlardır. Bu səbəbdən düşünmürəm ki, Bakıda inşaat işləri azalsın və kapital xarici ölkələrə yönəlsin. Çünki bundan əvvəl eyni addımları atan, eyni prosesi həyata keçirən müvafiq icra hakimiyyəti orqanı, yəni Bakı Şəhər İcra Hakimiyyəti, əslində, daha çox qiymətlərin artmasına yönəlik addımlar atırdı. Məsələ ondadır ki, uzun müddət idi xeyli sayda bina istismara qəbul edilmirdi. Prezident İlham Əliyevin müdaxiləsi sözügedən problemin aradan qalxmasına gətirib çıxardı. Hesab edirəm ki, yeni qaydalara tam əməl olunarsa, gələcəkdə belə problemlər mövcud olmayacaq".

***Vidadi ORDAHALLI***

**Rəsmi hesablamalara görə, Azərbaycanda əlilliyi olan 620 minə yaxın insan var. Bu insanların bir qismi ilə gündəlik həyatımızda rastlaşsaq da, bəzilərini çöl-bayırda görə bilmirik. Bunun da sadə bir səbəbi var. O insanların bəziləri evdə qapalı şəraitdə yaşayır.**

# Dərin sosial islahatlar gedən ölkədə əlillərin reabilitasiya vasitələrinin qiyməti narazılıq doğurmağa başlayıb

***Məhluqə Rəhimova:*** *"Təəssüf ki, bəzi həkimlər xəstəni Ortopedik Bərpa Mərkəzinə deyil, protez vasitələrinin satıldığı dükan və ya apteklərə göndərir"*



*"Əlillərin hərəkətini tənzimləyən protezlərin satışı ilə məşğul olan xüsusi dükan və apteklərdə qiymətlər hər kəsin büdcəsinə uyğun deyil"*

Onların bu cür yaşaması isə əsasən əlillərin hərəkətini tənzimləyən protezlərlə tam təmin olunmaması ilə bağlıdır. Bu da onların aktiv həyat tərzi yaşamasına mane olur. Əlbəttə, əlilliyi olan insanlar da cəmiyyətin bir parçasıdır və onların cəmiyyətə adaptasiyası çox vacibdir. Bunun üçün də onların protezlərdən istifadəsi əhəmiyyətlidir.

Tibb sahəsinin sürətlə inkişaf etdiyi bir zamanda fiziki məhdudiyyətli şəxslər onlar üçün hazırlanan protezlər və ortopedik məhsullardan yararlanaraq sağlam insanların sırasına qoşulmaq şansı əldə edirlər. Ancaq təəssüf ki, heç də hər əlilliyi olan şəxs bu vasitələrdən istifadə edə bilmir. Sözsüz ki, dövlət səviyyəsində əlillərin qarşılaşdığı bu problemlər öz həllini tapır. Onların sıxıntılarının həll olunması üçün dövlət tərəfindən şərait yaradılır.

Xatırladaq ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzində yüksək texnologiyalı protezlərin hazırlanması sexinin qurulması üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə vəsait ayrılıb. Görülən işlər sayəsində əlilliyi olan şəxslərə protez-ortopedik bərpa xidməti göstərilir. Mərkəz tərəfindən əlilliyi olan şəxslərə əlil arabası, aşağı və yuxarı ətraf, habelə döş protezi, müxtəlif reabilitasiya vasitəsi, bel və boyun nahiyəsi üçün korset, protez ayaqqabı, ortopedik ayaqqabı, dördayaqlı dayaq vasitəsi verilir.

Mərkəz tərəfindən əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsi təqdirəlayiqdir. Ancaq elə protez nümunələri var ki, onların satışı da həyata keçirilir, qiymətlər isə heç də hər kəsin büdcəsinə uyğun deyil.

Onlayn satış bazarında apardığımız araşdırma zamanı məlum oldu ki, əlil arabalarının qiyməti 290-3500 manat arasında dəyişir. Döş üçün silikon protezlərin qiyməti 120 manatdır. Ortopedik korsetlərin qiyməti 13 - 370 manat arasındadır. Əsa, çəlik və xodunokların qiyməti isə 10-83 manatdır.

Apteklərdə apardığımız araşdırma zamanı məlum oldu ki, bel və boyun üçün, eyni zamanda, digər ortopedik məhsullar satılır. Boyun üçün korsetin qiyməti 20-35 manatdır. Bel üçün korsetlər isə müxtəlif qiymətdir. Dəmirli korsetlərin satış qiyməti 40-60 manat arasında dəyişir.

**Əlil Qadınlar İctimai Birliyinin sədri Məhluqə Rəhimova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün əlillər pulsuz protezlərlə təmin olunmalıdırlar:** "Xəstə əlillik dərəcəsi və şəxsiyyət vəsiqəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yaradılan Protez-Ortopedik Bərpa Mərkəzini təqdim etməklə özünə lazım olan protez avadanlığını ala bilər. Əlillər ortopedik məhsullarla təmin olunurlar. Ancaq bəzi həkimlər xəstələri Protez-Ortopedik Bərpa Mərkəzinə deyil, protez vasitələrinin satıldığı dükanlara, apteklərə yönləndirir. Həmin məkanlarda protez vasitələrinin qiyməti isə əl yandırır. Təəssüf ki, bəzi həkimlər xəstəni Bərpa Mərkəzinə deyil, ortopedik məhsulların satıldığı dükan və ya apteklərə göndərir. Təbii ki, həmin məkanlarda satılan əlil arabası və digər protez vasitələrinin qiyməti olduqca bahadır.

Bu yaxınlarda 12 yaşlı əlil bir uşağın sənədini həkimlər hazır etmirdi. Məqsəd isə həmin uşağın valideynlərindən pul əldə etmək idi. Bu məsələdən xəbər tutandan sonra uşağın sənədlərini hazır edib nazirliyə göndərdik, oradan da uşağın ortopedik məhsullarla təmin olunması üçün şərait yaradıldı.

Bu məsələdə əsas yük Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin üzərinə düşməklə yanaşı, Səhiyyə Nazirliyi də aktiv olmalıdır. Səhiyyə Nazirliyi xəstəxanalara tapşırıq verməlidir ki, xəstəxanaya müraciət edən şəxsin təminatı əlaqədar qurumlara yönləndirilməlidir. Eyni zamanda, mənzil təsərrüfatı idarələri də ərazidə nə qədər əlilliyi olan şəxsin yaşaması barədə məlumatlı olmalıdırlar. İdarələr hansı mənzildə fiziki qüsurlu şəxsin yaşaması barədə xəbərdar olmalıdırlar".

***Günel CƏLİLOVA***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**ASTANOV FİKRƏT ƏMİRASLAN oğlu**



3 mart 1973-cü ildə Azərbaycan Respublikasının İmişli rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İmişli rayonunun Qulubəyli kəndində yaşamışdır. İmişli RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Astanov Fikrət Əmiraslan oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 9 oktyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Astanov Fikrət Əmiraslan oğlu 9 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Səfiyan kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Astanov Fikrət Əmiraslan oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASTANOV MAHİR HÜSEYNAĞA oğlu**



13 oktyabr 1972-ci ildə Azərbaycan Respublikasının Yardımlı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Yardımlı rayonunun Çayüzü kəndində yaşamışdır. Yardımlı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Astanov Mahir Hüseynağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 10 dekabr 1992-ci ildə Zəngilan rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Astanov Mahir Hüseynağa oğlu 10 dekabr 1992-ci ildə Zəngilan rayonunun Qazançı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalmışdır və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Astanov Mahir Hüseynağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASTANOV RAFİQ HEYDƏR oğlu**



20 noyabr 1972-ci ildə Azərbaycan Respublikasının İmişli rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər İmişli rayonunun Oruclu kəndində yaşamışdır. İmişli RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Astanov Rafiq Heydər oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 oktyabr 1992-ci ildə Xocavənd rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Astanov Rafiq Heydər oğlu 2 oktyabr 1992-ci il tarixində Xocavənd rayonunun Muğanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Astanov Rafiq Heydər oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Narkotiklərə meylli marşrut sürücülərinə necə nəzarət edilməlidir?

**Təhlükə saçan avtobus sürücülərinə tez-tez rast gəlinir. Yol hərəkət qaydalarından xəbərdar olmayan, içkili vəziyyətdə avtobusu idarə edən sürücülər az deyil. Sərxoş vəziyyətdə avtobusu idarə edən sürücülər Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən test edilərək müəyyən olunur. Spirtli içki qəbul edən sürücülər qanunvericiliyin tələbinə uyğun olaraq cəzalandırılır.**



*"Gündəlik reysqabağı müayinədə bu insanlarda narkoloji sərxoşluğun əlamətləri qeydə alınsa..."*

## *Ərşad Hüseynov: "Avtobus sürücüləri mütəmadi olaraq narkoloji testdən keçirilməlidirlər"*

Bununla yanaşı, elə sürücülər var ki, onlar narkotik qəbul edərək onlarla sərnişinin həyatını risqə atırlar. Hər gün yüzlərlə insan daşıyan, uşaqlı-böyüklü hər kəsin təhlükəsizliyinə cavabdeh avtobus sürücüsünün narkotik qəbul etməsi və onun sürücü kimi işə alınması ictimaiyyətdə ən çox tənqid edilən məsələdir. Bir neçə gün əvvəl Cəlilabadda 3 saylı marşrut xətti üzrə hərəkətdə olan mikroavtobusun sürücüsünün narkotik qəbul edərək avtomobili idarə etməsi müəyyən olunub. Həmin sürücü ilə bağlı lazımi tədbirlər görülüb.

Bu günlərdə paytaxtın Səməd Vurğun küçəsində 90-VX-692 dövlət nömrə nişanlı, 83 nömrəli marşrut xətti ilə hərəkət edən avtobusun sürücüsünə kobud qayda pozuntusuna yol verdiyi üçün Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən "saxla" işarəsi verilib. Lakin sürücü yol polislərinə tabe olmayaraq hərəkətini davam etdirib, hətta hərəkət etdiyi marşrut xəttindən belə çıxaraq davamlı qayda pozuntuları törədib. YPX əməkdaşları avtobus sürücüsünü Hənifə Ələsgərov küçəsi ilə Azadlıq prospektinin kəsişməsində saxlamağa nail olublar. Araşdırmalar zamanı sürücünün narkotik maddə istifadəçisi olduğu müəyyən olunub. Xatırladaq ki, Bakının Binə qəsəbəsində 160 nömrəli avtobus yük qatarına çırpılmış, nəticədə hadisə yerində 13 yaşlı uşaq və 1962-ci il təvəllüdlü Əliyev Şakir Pənah oğlu həlak olub, 42 nəfər yaralanmışdı. O zaman da sürücü Elxan Şirəliyevin bundan əvvəl də ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətdiyi üçün məhkumluq həyatı yaşadığı bəlli olmuşdu. Hətta bu qəzadan sonra tibbi müayinədən keçirilən sürücünün narkotik istifadəçisi olduğu da üzə çıxmışdı. Bu isə o deməkdir ki, hər gün canımızı, övladımızı, doğmalarımızı əmanət etdiyimiz ictimai nəqliyyatda çalışanların bəzisi narkotik istifadəçisidir. Maraqlıdır, narkotik istifadəçiləri hansı testdən keçirilərək avtobusu idarə etmək üçün işə qəbul olunur? Qeyd edək ki, qonşu Gürcüstanda aprel ayının 1-dən etibarən sürücülərin narkotik vasitələr istifadə edib-etmədiyi yerindəcə yoxlanacaq. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi məlumat yayıb. Sürücülərin nəqliyyat vasitələrini narkotik vasitələrin təsiri altında idarə edib-etmədikləri xüsusi testlə müəyyən olunacaq. Artıq Gürcüstana Almaniya istehsalı olan 10 min narkotest gətirilib. Narkotik vasitələr istifadə edən sürücülərə qarşı cərimə və ya 1 ilədək həbs cəzası tətbiq olunacaq. Onu da bildirək ki, hazırda Gürcüstanda sürücülərin narkotiklərdən istifadə edib-etmədiyi laboratoriyada müəyyən olunur. Narkotik vasitələrin təsiri altında nəqliyyat vasitələrini idarə edən sürücülər sürücülük vəsiqəsindən məhrum olunurlar. Məlumat üçün bildirək ki, İnzibati Xətalar Məcəlləsinə görə, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə sürücülər 400 manat və beş cərimə balı, eləcə də nəqliyyat vasitələrini idarəetmə hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılma ilə cəzalandırıla bilərlər. Bu qayda pozuntusu bir il ərzində təkrar törədildikdə isə həmin sürücü barəsində 400 manatdan 500 manatadək məbləğdə cərimə tətbiq edilməklə yanaşı, həbs də edilə bilər. Qeyd etdiyimiz kimi, sürücülərin sərxoş halda avtomobil idarə etməsinin qarşısını almaq üçün müxtəlif addımlar atılır, alkotesterə cəlb olunurlar və tez-tez reydlər keçirilir. Amma son günlər narkotik vasitə qəbul edərək sükan arxasına keçən sürücülərlə bağlı faktlar bu sahədə də zəruri addımların atılmasını gündəmə gətirir. Bu sahədə Azərbaycanda vəziyyətin nə yerdə olduğunu müəyyən etmək üçün mütəxəssislərə müraciət etdik. **Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov bizimlə söhbətində qeyd etdi ki, avtobus sürücüləri hər gün reysöncəsi tibbi müayinədən, alkoqol testindən keçməlidirlər:** "Qanunvericilikdə nəzərdə tutulub ki, hansı peşələr üzrə insanlar dövrü olaraq müayinələrdən keçməlidirlər. Həmin peşələrdən biri də sürücülərdir, xüsusən də avtobus sürücüləri. Avtobus sürücüləri mütəmadi olaraq geniş tibbi müayinədən keçirilməlidir. Avtobus sürücüləri həm narkoloji testdən, həm ürək-damar, həm də əsəb sistemlərinin yoxlanılması testindən keçirilməlidirlər. Qanunvericiliyə görə, hər bir avtobus sürücüsü reysə çıxmazdan əvvəl hər gün tibbi müayinədən keçirilməlidir. Bu müayinə zamanı sürücünün ümumi sağlamlıq durumu yoxlanılır, alkoqol testindən keçirilir, qan təzyiqi, nəbzi qiymətləndirilir. Həkim onun ümumi durumunu və şikayətlərini qeydə alır, səhhətində problem varsa, o şəxs həmin gün reysə buraxılmır. Gündəlik reysqabağı müayinədə bu insanlarda narkoloji sərxoşluğun əlamətləri qeydə alınsa, həmin şirkətin rəhbərliyi onu Narkoloji Dispanserə göndərməlidir ki, orada ətraflı narkoloji testdən keçsin. Dünya təcrübəsində belə bir yanaşma da var ki, sürücü narkoloji testdən keçərkən qanında narkotik izi müəyyən olunsa, hətta uzun müddət öncə qəbul etmiş olsa belə, yenə də onun ictimai nəqliyyatı idarə etməsi məsələsinə ehtiyatla yanaşırlar".

***Günel CƏLİLOVA***

# Bakıdakı məşhur "Şərab evi"ndən vergi məmurları külli miqdarda saxta spirtli içki tutdular



**Vergilər Nazirliyi alkoqollu içkilərin istehsalı sahəsində vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi, istehlak bazarında məhsulların qanunsuz dövriyyəsi və haqsız rəqabətə yol verilməsi halları ilə mübarizə çərçivəsində nəzarət tədbirlərini davam etdirir.**

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə daxil olmuş əməliyyat məlumatı əsasında vergi əməkdaşları tərəfindən Bakı şəhəri, Xətai rayonu, Rahib Məmmədov küçəsində yerləşən "Mini market"də və Gəncə prospektində yerləşən "Şərab evi mağazası"nda həyata keçirilən operativ vergi nəzarəti tədbirləri zamanı bu mağazalardan külli miqdarda qanunsuz istehsal edilmiş və saxta aksiz markaları ilə markalanmış alkoqollu içkilər aşkar edilib.

Müəyyən edilib ki, Bakı şəhəri, Xətai rayonu, 6-cı Əhmədli küçəsində yerləşən fərdi yaşayış evlərindən birində vətəndaş Əliyev Şahin Hacı oğlunun rəhbərliyi altında spirt məhsulları kustar üsulla bahalı içkilərə aid şüşə qablara doldurulur. Məhkəmə qərarı əsasında fərdi yaşayış evində aparılmış axtarış zamanı Rusiya və yerli istehsal adlı 1059 ədəd saxta aksiz markası, 286 ədəd hazır alkoqollu içki, 52 qutu boş şüşə, 15 qutu qapaq, 5 qutu tıxac, 1 qutu və 2 bağlama etiket aşkar edilib. Bundan başqa, bir neçə qutu saç rəngləyiciləri də aşkar edilib və hazırda həmin kimyəvi qatqıların alkoqol məhsullarının istehsalında istifadə edilib-edilmədiyi araşdırılır. Beləliklə, aparılan tədbir zamanı qanunsuz gəlir əldə etmək məqsədilə istehlakçıların kütləvi şəkildə aldadılması, insan orqanizmi üçün təhlükə yarada biləcək saxta məhsulların hazırlanması, aksiz markalarının saxtalaşdırılması hallarına yol verilməsi müəyyən edilib. Aşkar edilmiş faktlar üzrə cinayət işi qaldırılıb, Şahin Əliyev barəsində həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, Vergilər Nazirliyi tərəfindən Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Vaqif Mirzəyev küçəsi 53 ünvanında yerləşən həyət evində bir sıra brend markalara məxsus yuyucu və təmizləyici vasitələrin saxta üsulla hazırlanması ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş müraciət əsasında araşdırma aparılıb.

Xəzər Rayon Məhkəməsinin qərarı əsasında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən həmin ünvanda yerləşən Həmidov Əlövsət Akif oğluna məxsus həyət evində keçirilən nəzarət tədbiri zamanı bir sıra brend markalara, o cümlədən "Ariel", "Vernel", "Calgon" və "Domestos" adlı markalara məxsus yuyucu və təmizləyici vasitələrin saxta üsulla əldə edilərək satışa hazırlandığı müəyyən edilib. Ə.Həmidov qonşu ölkələrdən ucuz yuyucu vasitələri alaraq onları texniki duzla qarışdırıb brend markalı yuyucu vasitələrin qutularına dolduraraq hazırladığını və müxtəlif obyektlərə, o cümlədən "Sədərək" ticarət mərkəzində fəaliyyət göstərən satış obyektlərinə təqdim etdiyini etiraf edib. Bundan başqa, baxış zamanı məhsulların hazırlanması məqsədilə istifadə edilməmiş boş qutular və etiketlər aşkar edilib. Saxta məhsulların hazırlanmasında Həmidov Əlövsət Akif oğlundan başqa daha 4 nəfərin əmək müqaviləsi olmadan bu işlərin yerinə yetirilməsinə cəlb edildiyi müəyyən olunub. Qeyd olunan faktlarla əlaqədar araşdırma aparılır.

Beləliklə, aparılan nəzarət tədbirləri zamanı hər iki halda yerli və xarici istehsalçıların məhsullarını saxtalaşdırmaqla onların intellektual mülkiyyət hüquqlarına və işgüzar nüfuzuna zərər vurulması və vergidən yayınma halları müəyyən edilib. Vergilər Nazirliyi vergi ödəyicilərinin nəzərinə çatdırır ki, aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı, aksiz markalarının saxtalaşdırılması, istehlak bazarına qeyri-qanuni istehsal olunmuş məhsulların çıxarılması qanunvericiliklə qadağandır. Bununla belə, son zamanlar vergi orqanlarında daxil olan əməliyyat məlumatları əsasında müəyyən edilib ki, ölkə ərazisində fəaliyyət göstərən bir sıra ictimai iaşə obyektlərində, xüsusilə şadlıq evlərində vətəndaşlara qanunsuz istehsal edilmiş və saxta aksizli, o cümlədən kustar üsulla hazırlanmış alkoqollu içkilər təqdim edilir. Gəlir əldə etmək məqsədilə belə "işbazlar"la sövdələşməyə gedən vergi ödəyiciləri bilməlidirlər ki, bununla yalnız qeyri-qanuni istehsalçıların fəaliyyətinə rəvac vermir, həm də vətəndaşların sağlamlığını təhlükə altına atmış olurlar.

Vergi orqanları belə halların qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcək. Vergilər Nazirliyi ölkə vətəndaşlarına müraciət edərək bildirir ki, ticarət şəbəkələrində və ictimai iaşə obyektlərində alkoqollu içkilər alarkən, onların aksizinin olub-olmamasına, malın qiyməti və məhsulun keyfiyyətinin uzlaşmasına diqqət yetirsinlər və hər hansı şübhələri yaranarsa, aidiyyəti dövlət qurumlarına müraciət etsinlər.

# Dövlət sifarişi ilə çəkilən kinolara xarici şirkətlər hansı mexanizmlə cəlb oluna bilər...

**Müasir Azərbaycan kinosunun dünya kinosuna inteqrasiyası zamanın tələbi kimi meydana çıxıb. Milli kino sənayesinin yenidən qurulması, yeni maddi-texniki bazaya malik olması, habelə kino sahəsində kadrların yetişdirilməsi, xarici kino şirkətləri ilə müştərək filmlərin çəkilməsi aktual məsələdir.**




*"... xarici kino şirkətləri ilə müştərək filmlər çəkməyə maraq göstəririk"*

## *Müşfiq Hətəmov: "Hesablama Palatasının da verdiyi təkliflərə çox diqqətlə yanaşırıq"*

Kino sahəsində mövcud olan qanunvericilik bazasının yenidən işlənib hazırlanması, kino ilə bağlı gərəkli maddələrin həmin sənədlərdə əks olunması da vacibdir. Milli Məclisdə "Kinematoqrafiya haqqında"Qanuna ediləcək əlavə və dəyişikliklər də çox aktualdır.

Hesablama Palatası təklif edir ki, dövlət sifarişi ilə istehsal edilən kinofilmlər üzrə mövcud qaydalar təkmilləşdirilsin. Qurum hesab edir ki, Azərbaycanda çəkiləcək filmlərin istehsalında xarici mütəxəssislərin də iştirakı vacibdir. Hesablama Palatasının 2018-ci ildə fəaliyyəti barədə Milli Məclisə təqdim etdiyi sənəddə bütün bu məsələlər təklif kimi qeyd edilib. Sənəddə bildirilir ki, "Kinematoqrafiya haqqında" Qanuna müştərək filmlərin çəkilməsi və xarici mütəxəssislərin yerli film istehsalına cəlb edilməsi ilə bağlı yeni müddəaların daxil edilməsi barədə təkliflər verilib.

Nazirlər Kabinetindən isə Hesablama Palatasına verilən müvafiq məlumata görə, dövlət sifarişi ilə filmlərin çəkilişinə dair məsələləri ehtiva edən təlimat hazırlanıb, mədəniyyət naziri tərəfindən təsdiq edilib və hazırda tətbiq olunur. Eyni zamanda, "Kinematoqrafiya haqqında" qanun layihəsi hazırlanıb və Milli Məclisə təqdim olunub.

**"Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov mövzu ilə əlaqədar "Bakı-Xəbər"ə bildirdi ki, Hesablama Palatasının təklif etdiyi məsələlərlə tanışdır və o təkliflər qanunvericilikdə öz əksini tapacaq.** O vurğuladı ki, Azərbaycan kinosunun dünyaya inteqrasiyası üçün bu təkliflər vacibdir. "Yeni qanun layihəsində yer alması üçün bizim özümüz də geniş təkliflər vermişik və eyni zamanda, Hesablama Palatasının da verdiyi təkliflərə çox diqqətlə yanaşırıq. Həm "Kinematoqrafiya haqqında" qanun layihəsində, həm də kino haqqında hazırladığımız yeni konsepsiyada bu məsələlərin hamısı nəzərdə tutulub. Konsepsiyada Azərbaycan kinosunun dünyada qəbul olunmuş kino istehsalatı prinsiplərinə uyğunlaşdırılması da əks olunub. Məqsəd kinomuzun dünya kinosuna inteqrasiyasına nail olmaqdır. Biz, mütəmadi olaraq, xarici kino şirkətləri ilə müştərək filmlər çəkməyə maraq göstəririk. Əslində, məqsədimiz də xarici kino şirkətləri ilə birgə film çəkməkdir və bütün proseslərdə də bu məsələni nəzərə alırıq".

M.Hətəmov qeyd etdi ki, həm yeni qanun layihəsinin, həm də konsepsiyanın qəbul edilməsi Azərbaycan kinosu qarşısında yeni üfüqlərin açılmasına səbəb olacaq. Onun sözlərinə görə, burada iki əsas prinsipə diqqət yetirilmelidir. "Birincisi, Azərbaycan kinosunun dünyaya çıxması daha da asanlaşacaq. İkincisi, Azərbaycanda yeni və böyük istehsalat prosesləri başlayacaq. Yeni qanun layihəsində film komissiyası ilə bağlı maddə də var. Yəni bütün dünyada qəbul olunmuş sistemdir. Bunun da məqsədi əsasən kinoya xarici investisiyanın cəlb edilməsidir. Bu çox vacib və böyük prosesdir və biz onu yeni konsepsiyada nəzərdən keçiririk" - deyə M.Hətəmov bildirdi.

"Müşfiq müəllim, bəzi kino mütəxəssisləri deyirlər ki, ölkəmizdə xarici şirkətlərlə birgə filmlərin istehsal olunması üçün Azərbaycan tərəfi hansısa beynəlxalq kino qurumlarına üzv olmalıdır. Bu fikirlər nə dərəcədə əsaslıdır?" - deyə soruşduqda, o bildirdi ki, xarici kino qurumlarının öz missiyası var. "Bu qurumların özünün başqa missiyası var. Müştərək film istehsalına bütün dünya kino şirkətləri açıqdır. Yəni əgər razılığa gəlirsənsə, fikir və ideyaların üst-üstə düşürsə, bu iş alınır. Bu məsələyə hansısa beynəlxalq kino qurumları müdaxilə etmirlər. Ancaq kinonun inkişafına dəstək layihələri var ki, onlarda həmin qurumların rolu böyükdür. Müştərək filmlər çəkməyə hansısa bir qurumun heç bir maneəsi yoxdur".

Yeni formalaşdırılan qanunvericilik bazasının Azərbaycanda kinoprodüsserlik institutunun ayağa durmasına nə kimi dəstək olacağına gəlincə, M.Hətəmov qeyd etdi ki, prodüsserlik institutunun inkişafı olduqca vacib bir məsələdir və bu, yeni hazırlanan sənədlərdə əsas götürülən məsələlərdən biridir: "Burada əsas diqqət Azərbaycan kinoprodüsserlik məktəbinin və özəl kino studiyalarının inkişafıdır. Bu məsələlər nəzərdə tutulub. Bu da onunla bağlıdır ki, artıq bütün dünya buna doğru gedir. Dövlətin, "Azərbaycanfilm"in əsas rolu isə peşəkar kino məktəbinin qorunub saxlanması, gənc kadrların üzə çıxarılması və sairdir. İndiki qanun layihəsində özəl studiyaların inkişafına üstünlük verilir. Həm qanun layihəsində, həm də konsepsiyada özəl kino studiyaların inkişafı və onlara dəstək nəzərdə tutulur".

*İradə SARIYEVA*

# Bakı Mühəndislik Universitetinin tələbələri yenə qalib oldular...

**Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc Mühasiblər" İctimai Birliyi tərəfindən Bakı və Gəncə şəhərlərində həyata keçirilən "Gənclər üçün Mühasibatlıq üzrə II Olimpiadanın təşkili" adlı layihənin Bakı Konqres Mərkəzində final mərhələsi keçirilib.**



Layihənin əsas məqsədi gənclərin mühasibatlığın öyrədilməsində analitik düşüncə tərzini yüksəltmək, bacarıqlı və istedadlı tələbələrə əlverişli şərait yaratmaq, onların gələcəkdə təhsil inkişafını və professional istiqamətləndirilməsini təmin etməkdir.

Qeyd edək ki, layihə çərçivəsində final mərhələsindən öncə universitetlər üzrə seçim turları keçirilir və nəticələrə əsasən müvafiq keçid balını toplayan tələbələr olimpiadanın final mərhələsində iştirak etmək hüququ qazanır.

**Olimpiada ümumilikdə 11 universitetin 400-dən çox tələbəsini əhatə edib. Final mərhələsində isə 45 nəfər tələbə iştirak edib.**

Beləliklə, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi tərəfindən hazırlanan Mühasibat Uçotu üzrə suallara əsasən keçirilən olimpadada 1-ci yerə BMU-nun İqtisadiyyat və İdarəetmə fakültəsinin Mühasibat uçotu və audit ixtisası üzrə IV kurs tələbəsi Əfsanə Mustafayeva, 2-ci yerə BMU-nun İqtisadiyyat və İdarəetmə fakültəsinin Maliyyə ixtisası ixtisası üzrə III kurs tələbəsi Nail Qasımzadə, 3-ü yerə BMU-nun İqtisadiyyat və İdarəetmə fakültəsinin Maliyyə ixtisası üzrə III kurs tələbəsi Ramin Cəfərov layiq görülüb. Onlara diplom və hədiyyələr təqdim olunub.

**Digər iştirakçılara isə sertifikatlar və həvəsləndirici hədiyyələr verilib. Həmçinin iştirakçıların gələcəkdə iş yerləri ilə təmin olunması da nəzərdə tutulub.**

*Baki-xeber.com*



## İrandan Azərbaycana soğan ixracına qadağa yayın sonuna qədər davam edə bilər

**İranda yerli bazarda vəziyyət nizama salınana qədər kartof və soğan ixracına qoyulan qadağa qüvvədə qalacaq. "Trend"in məlumatına görə, bu ölkənin sənaye, mədən və ticarət naziri Rza Rəhmani deyib.**

İranın Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı Sektoru Təhlükələrinin Azaldılması və Fövqəladə Halların İdarə Edilməsi İdarəsinin baş direktoru Məhəmməd Musəvi isə bildirib ki, sel və daşqınlar nəticəsində 12 gün ərzində İranın 12 vilayətinin kənd təsərrüfatına 45 trilyon rialdan çox (təxminən 1,07 milyard dollar) ziyan dəyib. Bu ziyan nəticəsində kartof və soğanın ixracı dayandırılıb.

Qeyd edək ki, İranda ildə təxminən 5 milyon ton kartof istehsal edilir. 4,5 milyon tonu ölkədaxili tələbatı ödəyir, 500 min ton kartof isə ixrac üçün nəzərdə tutulur.

Kənd təsərrüfatına dəyən ziyanları nəzərə alsaq, kartof və soğanın ixracına qoyulan qadağanın yayın sonunadək davam edəcəyini proqnozlaşdırmaq olar.

№ 59 (3957) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

4 APREL 2019-cu il

www.baki-xeber.com

# 77 yaşı var, 55 ildir saçını kəsmir

**Çinin Sıçuan vilayətində kişi 55 il saçını kəsməyib. Nəticədə, saçı 5,5 metrə qədər uzanıb.**

"Bizimyol.info" xəbər verir ki, 77 yaşlı Ake İçjen saçını uzatmağa başlayanda onun 23 yaşı olub. Deyir ki, saç kəsdirməməyin sağlamlıq üçün faydalı olduğunu eşidib və belə qərar verib. Onun sözlərinə görə, saçını uzatmağa başlayandan bir neçə il sonra 1000 yuan müqabilində kəsdirməyi təklif ediblər, amma razılaşmayıb. Uzun saçın yuyulması, daranması ona müəyyən çətinliklər yaratsa da, Ake artıq vərdiş edib, şikayətlənmir. Gəlini deyir ki, bu qədər uzun saçla yaşamaq onun üçün normal haldır: "O, ayda azı iki dəfə bərbərxanaya gedir. Orada onun saçını yuyurlar, qaydaya salırlar. Üç saat ərzində bu işi iki və ya üç adam görür". Gəlin qayınatasının bərbərxanada saçını qaydaya saldığı prosesi videoya çəkərək, sosial şəbəkələrdə yayıb. Şərh



yazanlar Akenin "Ginnesin Rekordlar Kitabı"na düşmək üçün müraciət etməsini məsləhət görüblər. "Ginnesin Rekordlar Kitabı"nda adı olan ən uzun saçlı adam da çinli qadındır. Se Tsyupinin saçının uzunluğu 5,6 metrdir. Analoji kişi rekordu isə yoxdur.

## "Nar TV" ilə ən maraqlı filmlər və TV seriallar Azərbaycan dilində

**Azərbaycan telekommunikasiya bazarında ilk onlayn TV tətbiqi olan "Nar TV"də yeniliklər edilib. Artıq "Nar TV" ilə TV kanalları və verilişlərlə yanaşı, film həvəskarları üçün sevdikləri filmlər, seriallar daha əlçatan olacaq. Belə ki, "Nar TV" tətbiqinə əlavə edilən geniş film bazası ilə seçilmiş filmləri Azərbaycan dilində də izləmək mümkün olacaq.**

"Nar TV" tətbiqində hər kəsin zövqünə uyğun filmlər mövcuddur və tətbiqdə filmlər kateqoriyalarına görə bölünüb. Qeyd edək ki, "Nar"ın təqdim etdiyi bu məhsulun bütün üstünlüklərindən faydalanmaq üçün istifadəçilər "Google Play" və "App store"-dan yenilənmiş tətbiqi yükləməlidir.

"Nar TV" tətbiqi vaxt və məkan sərhədi tanımır. Belə ki, "Nar TV" abunəçilərə istənilən məkanda və vaxtda mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli, regional və beynəlxalq televiziya kanallarına və filmlərə baxmaq imkanı verir.

Yeni qeydiyyatdan keçən istifadəçilər 1 ay ərzində "Nar TV" tətbiqindən ödənişsiz yararlana biləcəklər. "Nar TV"nin digər üstünlüyü vaxtınız olmadıqda ötürdüyünüz proqramlara 12 saat ərzində baxmaq mümkünlüyüdür. Aylıq abunə haqqı cəmi 3 AZN-dir. Abunəçilər "Nar TV"yə "Nar"ın 4G şəbəkəsindən istifadə etməklə, tam keyfiyyətdə baxa bilərlər.

"Nar TV"də valideyn nəzarət xidməti də mövcuddur. Bunun üçün xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq olar. Qeyd edək ki, "Nar TV" tətbiqində TV kanalları "Uninet", filmlər və seriallar isə "MEGOGO" ilə əməkdaşlıq çərçivəsində təqdim edilir. "Nar TV"nin digər üstünlükləri barədə daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Çipsinin təhlükələri...

**Çipsilər ucuz, dadlı və asan əldə edilən bir qəlyanaltı növüdür. Bu səbəbdən də, insanların çox böyük bir hissəsi bu məhsuldan istifadə edirlər və bunu etdikləri zaman orqanizmlərinə nə qədər ziyan vurduqlarından isə, xəbərsizdirlər.**

Təkcə bir ovuc çipsi yemək insanda çox böyük problemlər yarada bilər. İndi isə gəlin həmin problemlərin bir neçəsi ilə tanış olaq: Piylənmə riskini artırır. Çipsilər kaloriylə olduqca zəngindirlər. Bu səbəbdən də, çəki artımına şərait yaradırlar. Tərkibində olan yağlar, qatqı maddələri və xüsusən də, kartoflar kalori ilə zəngin olduğundan istifadə edilməsi məsləhət görülmür. Yüksək qan təzyiqi əmələ gətirir. Çipsilərin tərkibinə daxil olan natrium maddəsi ürək-damar xəstəliklərinin yaranmasına imkan yaradır. Bu maddə insult, ürək çatışmazlığı və böyrək xəstəliyi kimi bir çox problemlərə gətirib çıxarır. Bunun nəticəsində insanda qan təzyiqi normadan çıxır və orqanizmə mənfi təsir göstərir. Xolesterol səviyyəsini olduqca yüksəldir. Çipsilərin hazırlandığı mühit ekoloji cəhətdən müsbət sayılmır. Bunun ən əsas səbəbi istifadə olunmuş yağların dəfələrlə işlədilməsidir. Bu isə, insan orqanizmi üçün zərərlidir. Xüsusən də, yüksək xolesterolun yaranmasına imkan verir. Əgər sağlam həyat sürmək istəyirsinizsə, övladlarınızın sağlam olmasını istəyirsinizsə, çipsi və digər zərərli məhsullardan uzaq durun.

## Köhnə telefonunu gətir, "Azercell"dən yeni 4G Nokia smartfonu və 150 AZN-dək hədiyyə qazan!

**Müştərilərinin istəkləri hər zaman diqqət mərkəzində saxlayan "Azercell" abunəçilərini yeni kampaniya ilə sevindirir.**

Azərbaycana 4G xidmətini ilk dəfə gətirən "Azercell Telekom", bu dəfə abunəçilərinin istifadəsinə yeni "Nokia" - 4G smartfon kampaniyasını təqdim edir. Belə ki, yalnız aprel ayının 3-dən 30-dək "Azercell" bütün Sim-Sim abunəçiləri üçün köhnə mobil telefonlarını "Azercell" dükanlarına təhvil verib, yeni Nokia 1, Nokia 2.1, Nokia 3.1, Nokia 3.1 Plus, Nokia 5.1, Nokia 5.1 Plus, Nokia 6.1 və ya Nokia 7.1 telefon modellərindən birini 25%-dək endirimlə əldətmə fürsəti təklif edir. Əlavə olaraq ödənilən məbləğin 150 manatadək dəyəri hədiyyə qismində 6 ay ərzində hissə-hissə nömrənin balansına geri qaytarılır. "Azercell"in 4G sürətini yeni 4G Nokia smartfonunda hiss et!

Əlavə məlumat üçün https://www.azercell.com/az/personal/campaigns/monthly/cashback/ səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Hadisələrin dinamikasını müşahidə edin, günün tempindən geri qalmayın. Görüşlər, informasiyalar sizi laqeyd qoymayacaq. Plan və ideyaların heç də hamısı yaxın ətrafınızdakı insanlar tərəfindən rəğbətlə qarşılanmır.



**Buğa** - Günü, sakit şəraitdə keçirməyə can atın. Təzyiqlər artarsa, hadisələrin axarı güclənərsə, təkbaşına çalışmağa üstünlük verin. Maraqlarınızın tam təminatına və planın yerinə yetirilməsinə ciddi diqqət verin.



**Əkizlər** - Aktiv olun. Əsaslı, maraqlı və perspektivli işləri ön plana çəkin. Orqanizmin energetik tonusunun bərpasına fikir verin. Mənafelərinizin tapdanmasına imkan verməyin. Maaş və ya vəzifəyə görə təhqirlərə dözməyə dəyməz.



**Xərçəng** - Səhər saatlarından etibarən ətalətli olmayın, hadisələrin arxasınca getməyin. Olaylar sizdən yan keçməsin. İşdə qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün planlı davranın.



**Şir** - Gərgin, təlaşlı, əndişəli gündür. Diqqəti bir işdə cəmləmək çətindir. Mühüm məsələlərdən biri sizi fəal iştirakınız və müdaxiləniz olmadan həllini tapacaq. Həddən artıq aktiv olsanız, əldə edilmiş nəticə qeyri-konstruktiv olacaq.



**Qız** - Yaxın bildiyiniz insan və dəyər verdiyiniz şəxslə münasibətlərdə gərginlik yaratmamaq üçün həddən ziyadə tələbkar olmayın. Yersiz səmimiyyətə varmayın. Dəvət aldığınız yerə gedin, yeni tanışlıqlarda sayıq davranın.



**Tərəzi** - Maraqlarınız və perspektivləriniz əməkdaşlıqla bağlıdır. Yaxın ətrafınızdakı insanlar sizin problemlərinizlə dərindən maraqlanmırlar. Özünüzü aldatmayın, qətiyyətli olun, yalanlara uymayın.



**Əqrəb** - Gərginlik, təmaslardakı aqressivlik artır. Yarımçıq qalmış işləri bitirin, bir yerdə oturmayın. Yaxın ətrafınızda insanla aktiv təmaslarda olun. Maraqlandığınız məsələ ilə bağlı fikrinizi dəyişə biləcək xəbər, informasiya ala bilərsiniz.



**Oxatan** - Səhər saatlarından etibarən aktiv olun. İmkan və resurslarınızdan yararlanın. Yaradıcılıq imkanlarından faydalanın. Özünüzü rahat hiss etdiyiniz əlaqələr və etimad etdiyiniz insanlarla təmaslarla kifayətlənin.



**Oğlaq** - Dəqiqlik və konkretlik tələb edən işlərdə aktivlik nümayiş etdirin. Günün hadisələrinin məğzini, münasibətlərin əsaslarını təxminləməyə can atın. Planların fərqli məcraya yönəlməsi istisna deyil.



**Dolça** - Əsas diqqəti gərəkli məlumatın aranmasına, ondan sərfəli istifadə olunmasına yönəldin. Əlaqələr, təmaslar və qarşılıqlı sərfəli tərəfdaşlıq çox vacibdir. Yaxınlarınız və ya qohumlarınızdan birinin həyatındakı hadisə sizə ciddi təsir edə bilər.



**Balıqlar** - Qəfil təəssüratlar və hadisələrdəki kəskin dönüşlər zamanıdır. Ciddi, genişmiqyaslı işə başlamağa təşəbbüs etməyin. Yaşamın indiki dövrdə təklif etdikləri ilə kifayətlənməyə dəyər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünya əhalisinin sayı ilə bağlı son rəqəmlər açıqlandı

**2019-cu ildə dünyada əhalinin sayı 7,7 milyarda çatıb, 2050-ci ilə qədər isə bu rəqəm daha 2 milyard arta bilər.**



"Trend" bildirir ki, bu barədə BMT-nin hesabatında deyilir. Hesabatda bildirilir ki, əhalinin artım sürətli azalsa da, davam edir. XXI əsrin sonuna qədər planetdə 11 milyard əhalinin yaşayacağı proqnozlaşdırılır. Hesabata əsasən şəhər əhalisinin sayı yaxın 30 ildə hazırki 56 faizdən 68 faizə qədər artacaq. Hazırda orta ömür müddəti 72,3 ildirsə, 2030-cu ilə qədər bu göstərici 74,3 il olacaq.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3500*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.